№09 (184) 30.06.2015
Qəzet 2008-ci il martın 15-dən çıxır
REGION PRESS
İctimai qəzet
“რეგიონ პრესი” საზოგადოებრივი გაზეთი
www.amm.ge
AZERBAIJANIAN'S CULTURE CENTRE GEORGIA AMM

# RAMAZAN

İslamda ilin ayları arasında Ramazan ayı ən şəfaqətli və ən müqəddəs ay hesab edilir. Onu məcazi mənada "on bir ayın sultanı" da adlandırırlar. Orucluq, hicrinin ikinci ilində Məhəmməd peyğəmbər tərəfindən Mədinədə bu məqsəd üçün Ramazan ayı təyin olandan öz tarixini başlayır. Məhz Ramazan ayının axırıncı on gecəsinin birində




Quran nazil olmuşdur. Deyilənə görə bu, həmin ayın ya 22-dən 23-nə, ya da 26-dan 27-nə keçən gecə baş vermişdir. Bu gecə "leylət al-Qadr" – qüdrətli, əzəmətli gecə adlanır. Quranda bu gecə haqda belə yazılır: "Qədr gecəsi min aydan daha xeyirlidir! O gecə mələklər və ruh Rəbbinin izni ilə hər bir işdən dolayı yerə enərlər. O gecə dan yeri sökülənə kimi salamatlıqdır!"

# I Avropa Oyunları tarixə çevrildi

***Srağagün Bakı Olimpiya Stadionunda "Bakı-2015" I Avropa Oyunlarının bağlanış mərasimi başa çatıb.***

Bağlanış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, "Bakı-2015" I Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki, Bolqarıstan Prezidenti Rosen Plevneliyev, Rusiya Dövlət Dumasının sədri Sergey Narışkin, Lixtenşteyn parlamentinin sədri Albert Frik, Avropa Olimpiya Komitəsinin, Beynəlxalq Olimpiya Komitəsinin nümayəndələri, Avropa Olimpiya ailəsinin üzvlərin iştirak ediblər.

Baku 2015
1st EUROPEAN GAMES

*(Davamı səh. 12-də)*

## Gürcüstanın Azərbaycandakı səfirliyi könüllü ianələr üçün xüsusi bank hesabı açıb

***İyunun 13-dən 14-nə keçən gecə Tbilisi şəhərində baş vermiş təbii fəlakət nəticəsində 19 nəfər həlak olub, itkin düşənlərin axtarışları bu günə qədər davam etdirilir.***



Gürcüstanın Azərbaycandakı səfirliyi bildirir ki, fəlakətin episentrində sel yaşayış binalarını, tikililəri, avtonəqliyyat vasitələrini tamamilə məhv edib, nəticədə çox sayda insan evsiz qalıb. Təbii fəlakət şəhər infrastrukturuna böyük ziyan vurub, şəhərin mərkəzi rayonlarının birində yollar, körpülər, yaşıllıqlar və digər obyektlər məhv olub və nəqliyyat və piyadaların hərəkəti çətinləşib. Tarixi obyekt olan Tbilisi zooparkı tamamilə məhv olub və heyvanların əksəriyyəti tələf olub.

Səfirlikdən daxil olan məlumatda deyilir: "Azərbaycandakı dostlarımız bu faciədə bizə öz səmimi dəstəklərini göstərdilər və səfirlik Gürcüstan xalqı adından bu dəstəyə görə öz minnətdarlığını bildirir. Bu günə qədər səfirliyə sadə insanlar, hökumət və qeyri-hökumət nümayəndələri, işgüzar strukturlar müraciət edərək başsağlığı verir və fəlakətdən ziyan çəkmiş insanlara öz yardımlarını təklif edirlər".

Bununla əlaqədar Gürcüstan səfirliyi Azərbaycan Beynəlxalq Bankında azərbaycanlı fiziki və hüquqi şəxslərin könüllü ianələri üçün xüsusi bank hesabı açıb. Həmin hesab nömrəsi aşağıdakı kimidir:

**Beneficiary Bank: The International Bank of Azerbaijan Republik,**
**"IBA-PREMIER", CUSTOMER SERVICE**
**SWIFT: IBAZAZ2X**
**Nizami str., 67, Phone: (+99412) 493-00-91**
**Beneficiary: EMBASSY OF GEORGIA**
**IBAN N: AZ10IBAZ39020028409416149120**
**Gürcüstanın Azərbaycan Respublikasındakı səfirliyi**

## D. Narmaniya: *"Təxminən 10 gün ərzində təmizlik işlərini sona yetirməliyik"*

***"Hesab edirik ki, təxminən 10 gün ərzində əsas təmizlik işlərini sona yetirəcəyik" – deyə Tbilisi meri David Narmaniya bildirib.***



David Narmaniyanın dediyinə əsasən, paralel olaraq həm təmizlənən ərazidə layihələrin hazırlanması, həm də iki ərazidə tikinti işləri aparılır.

David Narmaniya: "Hesab edirik ki, 10 gün ərzində əsas təmizlik işlərini sona yetirəcəyik. Paralel rejimdə təmizlənən ərazilərdə layihələrin hazırlanmasına başladıq ki, bərpa işləri vaxtında başlasın. Hazırda iki ərazidə tikinti işləri aparılır. Sxneti küçəsi 13-də dayaq divarının bərpası işləri aparılır. Bu çox çətin olsa da, artıq bu layihəni həyata keçirməyə başlamışıq. İkinci ərazi isə, yol boyu dayaq divarının bərpa işləridir."

## Tbilisidə Avropa Oyunlarına həsr olunan konsert keçirildi

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin gənclər şöbəsinin təşkilatçılığı ilə Gürcüstanın paytaxtı Tbilisi şəhərində Bakıda keçirilən I Avropa Oyunlarına həsr olunmuş konsert keçirildi.

Tədbiri giriş sözü ilə açan Azərbaycanlıların Mədəniyyət Mərkəzinin gənclər şöbəsinin rəhbəri Nərgiz Əliyeva çıxışında bu hadisənin əhəmiyyətindən danışdı: "Bu gün bu tədbiri keçirməkdə əsas məqsədimiz Avopa Oyunları sevincini Gürcüstanda da paylaşmaqdır. Bilirsiniz ki, Gürcüstandan da oyunlara idmançılar qatılıb və bu tədbir vasitəsilə biz Gürcüstan yığmasını dəstəklədiyimizi bildiririk və ümüd edirik ki, qalibiyyət sevincimiz artacaqdır." - deyə N.Əliyeva vurğuladı.

"Ceyran" rəqs ansamblı, tar ifaçıları, gənc müğənnilər Hacıyev qardaşları, Şaban Məmmədov və başqaları öz çıxışları ilə tədbirə rəng qatdılar, Marneuli Gənclər Mərkəzinin gənc rəssamlarının əsərləri və idmançılarının nümunəvi şıxışları nümayiş olundu.

Tədbirdə Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyinin, Azərbaycan Dövlət Neft Şirkətinin Gürcüstan nümayəndəliyinin əməkdaşları, gürcü ziyalıları və gəncləri iştirak etdilər.

Tədbirin sonunda Avopa Parlamentində bir neçə deputatın qərəzli çıxışına etiraz olaraq bəyanat qəbul olundu, tədbir iştirakçıları tərəfindən imzalanaraq Avropa Parlamentinə göndərildi.



**RegionPress**

### Azərbaycanlı gənclər Tbilisidə zərərçəkən ailələrə yardım edib



Səh.2-də

### Dünyamızın dəli dərvişi, yaxud da şair Nizami Paşa Saraclıya salam...



Vaqif İsaqoğlu

Səh.5-də

### Sevəndə də sərhəd gözləmək...



*(sense)*

İbrahimxəlil

Səh.8-də

### Əflatun Amaşov: *"Xoşbəxtlik, bəlkə də, çox kiçik məsələlərlə bağlıdır"*



Rəbiqə

Səh.10-da

# KVEMO KARTLİ TELEŞİRKƏTİNDƏ YENİLİK

Artıq bir neçə həftədir ki, Kvemo Kartli teleşirkəti həftədə bir dəfə bölgədə baş verən hadislərin daycestini azərbaycan dilində soydaşlarımıza çatdırır. Hər bazar günü axşam saat 20.30 radələrində dinləyicilər qarşısında Almaz Maşov «Xronika» proqramında xəbərlərlə öz dinləyicilərini tanış edir.



Onu da qeyd etmək lazımdır ki, Almaz Mirzə oğlu İlya Dövlət Universitetinin tele-jurnalistika fakültəsini bitirib. Müəyyən bir vaxt Azərbaycan Respublikasının ANS teleşirkətində əməkdaşlıq edib. GO GROUP MEDIA üçün iki film çəkib. Bədii yaradıcılıqla müntəzəm şəkildə məşğul olur. Onun hekayələri gürcü mətbuatında, eləcə də Azərbaycan mətbuatında vaxtaşırı dərc edilir.

# Azərbaycanlı gənclər Tbilisidə zərərçəkən ailələrə yardım edib

Azərbaycanlı gənclər Tbilisidə baş vermiş təbii fəlakət zamanı zərərçəkən ailələrə yardım aksiyaları təşkil edib. Azərbaycanlıların Mədəniyyət Mərkəzinin gənclər şöbəsi Tbilisidə baş vermiş təbii fəlakət zamanı zərərçəkmiş ailələrə humanitar yardım göstərərək, ərzaq məhsulları və müəyyən ləvazimatlar təqdim edib. Qeyd olunub ki, bu yardım kampaniyasının başlanğıcıdır, AMM və Marneuli icra hakimiyyəti tərəfindən yardımlar və müəyyən tədbirlər davam edir: "Biz də öz tərəfimizdən gənclərə, əhaliyə üzümüzü tutaraq zərərçəkənlərə yardım məqsədilə müəyyən addımların atılmasını tövsiyə edirik. Maddi və ərzaqla yardım etmək istəyənlər AMM-ə və ya yerli icra hakimiyyətində yaradılmış komissiyanın rəhbəri Kamandar İsmayılova müraciət etsinlər", – deyə şöbənin rəhbəri Nərgiz Əliyeva bildirib.



Qeyd edək ki, yardım xarici ölkələrdən də qəbul olunur.

**RegionPress**

# "Salam" Mədəni Xeyriyyə Mərkəzinin üzvləri əlil və imkansız soydaşlarımızla görüşdülər

Gürcüstan Müsəlmanlar İdarəsinin dəstəyi və Rustavidə fəaliyyət göstərən "Salam" Mədəni Xeyriyyə Mərkəzinin təşkilatçılığı ilə Ramazan ayının başlanması münasibətilə "Salam" Mədəni Xeyriyyə Mərkəzində qeydiyyatda olan dörd əlil vətəndaşa müxtəlif növ yardımlar edilib. Əlillərə və imkansızlara edilən yardım ilk öncə Tbilisinin Ponicala kəndində yaşayan 1957-ci il təvəllüdlü Əsgərov Elizbara ərzaq və əl radiosu, həmin kəndin digər sakini 1981-ci il təvəllüdlü Məmmədova Donaraya isə bayram sovqatı hədiyyə edilib. Onların durumu ilə maraqlanan "Salam" Mədəni Xeyriyyə Mərkəzinin sədri Maya



Rəcəbova sonra Rustavi şəhərinə gələrək, orada yaşayan 1948-ci il təvəllüdlü, 7 ildir ki, yataq xəstəsi olan Mayıl Mehdiyevə əlil arabasını hədiyyə edib. Xeyriyyə cəmiyyətinin üzvləri xeyriyyə aksiyası gününün sonunda Qardabani rayonunun Kosalı kəndində olublar. Mərkəz üzvləri həmin kənddə də 29 yaşlı 1986-cı il təvəllüdlü əlil Xiyalov Elşənə əlil arabası hədiyyə ediblər. Onu da qeyd edək ki, "Salam" Mədəni Xeyriyyə Mərkəzi Rustavi şəhərində yaradılaraq bir neçə ay bundan öncə fəaliyyətə başlayıb. Ancaq qısa müddət ərzində bir çox xeyirxah işlər həyata keçirib. Biz "Salam" Mədəni Xeyriyyə Mərkəzinə və onun rəhbəri xanım Maya Rəcəbovaya bu xeyirxah işlərində uğurlar arzulayırıq.

# SOCAR Gürcüstanda daşqının nəticələrinin aradan qaldırılmasına yardım göstərir

SOCAR

SOCAR-ın (Azərbaycan Dövlət Neft Şirkəti) Gürcüstandakı nümayəndəliyi Tbilisidə daşqının nəticələrinin aradan qaldırılmasına yardım göstərir. Bu barədə SOCAR şirkətinin baş direktoru Mahir Məmmədov məlumat verib.

O bildirib ki, şirkət daşqının nəticələrinin aradan qaldırılması üçün Tbilisi meriyasına 10 min litr benzin və 50 min lari vəsait ayırıb: "SOCAR heyəti Tbilisidə daşqın zamanı həlak olanların ailələrinə başsağlığı verir. Şirkət tərəfindən dərhal qərargah yaradılıb və əməkdaşlarımız daşqın nəticəsində zərər çəkənlərə yardım göstərmək üçün ilkin tələbat əşyaları toplamağa başlayıb".

SOCAR-ın Gürcüstan nümayəndəliyinin rəhbərliyi əhaliyə yardım üsullarını nəzərdən keçirir.

# Gürcüstan səfiri: *"Avropa Oyunlarının möhtəşəm bağlanış mərasimi böyük idman tədbirinə layiqli final oldu"*

Bu barədə Gürcüstanın Azərbaycandakı səfiri Teymuraz Şaraşenidze bağlanış mərasimini şərh edərkən deyib.

Diplomat bildirib ki, açılış mərasimi kimi bağlanış mərasimi də Olimpiadaya layiq tədbirlər oldu: "Azərbaycan bütün dünyaya sübut etdi ki, I Avropa Oyunları kimi böyük miqyaslı tədbiri nəinki qəbul etmək, həmçinin uğurla keçirə bilər. İdman arenaları, idman yarışlarının təşkili, açılış və bağlanış mərasimləri Azərbaycanın uğurları və idman nailiyyətlərini nümayiş etdirdi" - deyə o bildirib.




# Rustavidə "Bakı-2015 I Avropa Oyunlarına dəstək" adlı konsert proqramı keçirildi

Gürcüstanın ən böyük sənaye şəhəri olan Rustavidə "Salam" Mədəni Xeyriyyə Mərkəzinin təşəbbüsü və təşkilatçılığı ilə Bakı-2015 I Avropa Oyunlarına həsr olunmuş konsert proqramı keçirilib. Rustavinin "Qorda" stadionunda baş tutan konserti giriş sözü ilə "Salam" Mədəni Xeyriyyə Mərkəzinin sədri Maya Rəcəbova açıb. O, bildirib ki, Gürcüstanda yaşayan azərbaycanlılar da Bakıda keçirilən I Avropa Oyunlarına dəstək olaraq bu tarixi idman yarışlarının keçirilməsinə görə hədsiz dərəcədə böyük sevinc hissi keçirirlər. Sonra xanım Maya Rəcəbova Bakı-2015 I Avropa Oyunlarında iştirak edən Azərbaycan və Gürcüstan idmançılarına uğurlar arzuladı. Konsert proqramı Gürcüstan Aşıqlar Birliyinin ən gənc üzvü olan Maksim Rəcəbovun səhnəyə çıxışı ilə start götürdü. O, ilk çıxışına "Gürcüstanlı Azəriyəm" mahnısı ilə başladı. Sonra söz konsertin fəxri qonağı olan gənc müğənni Üzeyir Mehdizadəyə verildi. Gənc müğənni özünün rəngarəng mahnı repertuarı ilə stadiona toplaşan gənc tamaşaçıların qəlbini qısa bir müddətdə fəth etməyə nail oldu. Onu da qeyd edək ki, "Qorda" stadionunda baş tutan "I Avropa Oyunlarına dəstək" adlı konsert proqramında "Sarvan" rəqs qrupu rəqqasələrinin çıxışları, Aşıq Maksimin saz havaları tamaşaçılara daha da xoş ovqat bağışladı. Konsertdə Gürcüstanın müxtəlif bölgələrindən, Qardabani, Marneuli, Saqareco, Dmanisi, Bolnisi və paytaxt Tbilisidən gələn soydaşlarımız, eləcə də gürcü içtimayətinin nümayəndələri və rejissor xanım Manana Alpaidze də iştirak ediblər.



**Nadir Almazoğlu**

# Marneuliyə dəyən ziyan hesablanır

Marneuli bələdiyyəsində güclü külək, yağış və dolu nəticəsində vətəndaşlara və şəhərə dəyən ziyanı yerli özünüidarəetmədə yaranmış xüsusi işçi qrupu araşdırır. Dəyən zərərin qədərini də məhz bu komissiya təyin edəcək.

Yerli özünüidarəetmənin əməkdaşlarından ibarət komissiya üzvləri şəhərin və kəndlərin zərərçəkən sakinləri ilə görüşərək hadisə yerlərini gözdən keçirir, hər şeyi qeydiyyata alırlar.



# Marneuli xəbərləri

## Tbilisiyə yardım



Paytaxtda təbii fəlakətin səbəb olduğu faciədən sonra, zərərçəkən ailələrə yardım etmək məqsədi ilə Marneuli bələdiyyəsinin icra başçısı Merab Topçişvili növbədənkənar iclas çağırdı. Fövqəladə iclasda bələdiyyə sədri Nəbi Abdullayev, xidmət rəhbərləri və deputatlar istirak etdilər.

İclasda qərar verildi ki, Marneuli bələdiyyəsinin özünüidarəsi təbii fəlakət nəticəsində zərərçəkən ailələrə ilkin gigiyenik vasitələrlə və ərzaq məhsulları ilə yardım göstərəcək.

Marneuli bələdiyyəsi zərərçəkən əhaliyə humanitar yardımı iyunun 17-də təqdim etdi. Bildirildi ki,bələdiyyənin əməkdaşları və əhali hər ehtimala qarşı yardım göstərməyə hazırdır.

İyunun 15 də, Matəm günü ilə bağlı, Marneuli bələdiyyəsinin özünüidarəsinin inzibati binasının dam örtüyündən dövlət bayrağı aşağı endirildi.

## Olimpiya məşəli qəbul edildi

***Olimpiyanın rəmzi olan Məşəl Maneuliyə, Bolnis bələdiyəsindən sonra daxil oldu.***

Məşəlin gəlişini qeyd etmək məqsədi ilə şəhərin girişində gənclərin iştirakı ilə şən fleş-mob hazırlandı, ondan sonra məşəlin şəhərə estafetasına başlandı.

Qonşu bələdiyyədən Marneuliyə daxil olan Məşəli ilk olaraq icra başçısının müavini Teymuraz Beridze alovlandırdı. Sonra estafeta növbə ilə yerli və titullu idmançılara – Etibar Elçiyevə, Müslüm Qəhrəmanova, Zaza Davadzeyə, Jora Serobyana və Lomer Jorjolianiyə keçdi.



Məşəl daşıyıcıları məşəli Marneulinin mərkəzinə çatdırdılar. Orada təntənəli idman və mədəni tədbirlər keçirildi.

Bayram tədbirində qubernatorun müavini Ramin İsmayılov, bələdiyyə sədri Nəbi Abdullayev, icra başçısı Merab Topçişvili, onun müavinləri, yerli hakimiyyətin əməkdaşları və dəvət olunan qonaqlar iştirak etdilər.

Tədbir möhtəşəm atəşfəşanlıqla başa çatdı.

## Alman mədəniyyət abidələrinin abadlaşdırılma-araşdırılma layihəsi

İyunun 5 də, Gürcüstanın Milli-Mədəni İrs Agentliyi tərəfindən maliyyələşən “Alman mədəniyyət abidələrinin abadlaşdırılma-araşdırılma”layihəsi çərçivəsində Marneuli bələdiyyəsinin Ulyanovka və Tamarisi kəndlərində mövcud olan qədim alman evlərinə baş çəkildi.



Sözügedən ekspedisiyada yerli özünüidarənin dəstəyi ilə Cənubi Qafqazda Almaniyanın mədəni irsin mühafizəsi ittifaqının üzvü, arxitektor-memar-bərpaçı Nestan Tataraşvili Marneuli bələdiyyəsinin təhsil, mədəniyyət, idman və gənclər üzrə iş şöbəsinin baş mütəxəssisi Elquca Kupatadze, Marneuli bələdiyyəsinin icra başçısının Ağkörpü və Tamarisidəki nümayəndələri Zaal Nadiradze və Mirza Jorjoliani iştirak edirdilər.

Adı çəkilən layihə Bolnisi, Asureti və Trialetidə olan alman tikililərinin İnventarlaşdırma-sertifikatlaşdırma-araşdırılması-nı, eyni zamanda alman evlərinin qeydiyyatını və yerinin müəyyənləşdirilməsini, bunu göstərəcək müvafiq elmi sənədlərin və xəritələrin hazırlanmasını nəzərdə tutur.

Araşdırmadan əlavə, Milli Agentlik hazırlanmış nəticələr əsasında məskənlərə abidə adının verilməsi və konkret yerlərə təcili müdafiə, qoruyucu tədbirlərin təşkil olunmasını planlaşdırır.

# “Dinamo”-“Qəbələ” matçına azarkeşlər məhdud sayda buraxılacaq

Gürcüstanın məşhur futbol komandası olan Tbilisinin “Dinamo”su UEFA-nın Avropa Liqasının birinci təsnifat mərhələsində Azərbaycanın “Qəbələ” komandası ilə görüşəcək. “Dinamo”-“Qəbələ” matçı iyulun 2-si, saat 20:00-da Tbilisinin “Dinamo Arena” stadionunda baş tutacaq. Biletlər matçın başlamasından bir gün əvvəl “Dinamo Arena” stadionunun kassalarında 5 lariyə satılacaq.



Stadionda aparılan yenidənqurma işləri ilə əlaqədar azarkeşlər məhdud sayda iştirak edə biləcəklər.

# Bütün Gürcüstanın Katolikos-Partiarxı II İlya ABŞ-da eynicinslilərlə bağlı qəbul edilən qərara münasibət bildirdi



Bütün Gürcüstanın Katolikos-Partiarxı II İlya Amerika Birləşmiş Ştatlarında Ali Məhkəmənin eynicinslilərin nigahının qanuniləşdirilməsini böyük səhv adlandırıb. Bu haqda patriarx “Müqəddəs üçlük” kilsəsində bazar moizəsi zamanı danışıb. Onun sözlərinə görə, insan nəyin pis və qəbuledilməz, nəyin yaxşı və qəbuledilən olduğunu ayıra bilməlidir.

II İlya: “Amerika Birləşmiş Ştatlarının bütün ştatlarında eynicinsli insanların evlənməsinə icazə verildiyini mətbuat vasitəsi ilə bildik. Bu böyük səhvdir və bunu amerikalıların özləri, ruhanilər deyirlər. Biz də bunu təsdiq edir və deyirik ki, bu, böyük səhvdir.”

# DİN 32 kiloqram partlayıcı maddə aşkarladı

Gürcüstan Daxili İşlər Nazirliyinin Acara Baş İdarəsinin Kobuleti rayonu Muxaestate şöbəsinin əməkdaşları keçirilən operativ-axtarış tədbirləri nəticəsində 1986-cı il təvəllüdlü Tamaz C.-ni hərbi sursat, partlayıcı maddələrin qanunsuz alıb-saxlanması ilə əlaqədar Kobuletidə yaxaladılar. Daxili İşlər Nazirliyinin məlumatına əsasən, hüquq mühavizəçiləri Kobuletinin Kvirike kəndində ittiham edilən şəxsin evində axtarış aparan zaman, evin anbarında 32 kq. trotil, 18 kapsula detonator və 30 metr uzunluğu olan yanğına davamlı sim aşkar ediblər. Saxlanılan şəxs törədilən cinayəti boynuna alıb. Hərbi sursatın, partlayıcı vasitələri qanunsuz alıb-saxlama faktı üzrə istintaq aparılır.



# Zaza Uruşadze Amerika Kino Akademiyasının üzvü seçildi



Bu il “Oskar” və “Qızıl qlobus” film mükafatlarının “Xarici dildə ən yaxşı film” nominasiyasına təqdim edilmiş “Mandarinlər” filminin rejissoru Zaza Uruşadze Amerika Kino Akademiyasının üzvü seçildi. Bu haqda rejissor sosial şəbəkədə yazıb: “Rəsmi olaraq Amerika Kino Akademiyasının üzvü oldum.”

# Marneulidə "2015-2020-ci illər üçün Vətəndaş Bərabərliyi və İnteqrasiya Strategiyası" sənədinin təqdimatı keçirilib

Marneulidəki Mülki Məşğulluq Mərkəzində "2015-2020-ci illər üçün Vətəndaş Bərabərliyi və İnteqrasiya Strategiyası" sənədinin təqdmatı keçirilib. Tədbir Gürcüstan Barışıq və




Vətəndaş Bərabərliyi məsələləri üzrə Dövlət Nazirliyi aparatının təşəbbüsü və təşkilatçılığı ilə azərbaycanlıların yığcam yaşadığı Marneulidə baş tutub. Tədbirdə Gürcüstan Barışıq və Vətəndaş Bərabərliyi məsələləri üzrə Dövlət Nazirliyinin şöbə müdiri Tina Qoqeliani "2015-2020-ci illər üçün Vətəndaş Bərabərliyi və İnteqrasiya Strategiyası" sənədini təqdim edib. Təqdimat mərasimində Gürcüstan Barışıq və Vətəndaş Bərabərliyi məsələləri üzrə Dövlət Nazirliyinin Vətəndaş İnteqrasiyası Departamentinin rəisi Zviad Zviadadze, nazirliyin Kvemo Kartli bölgəsi üzrə nümayəndəsi Zaur Darğallı çıxış edərək 2015-2020-ci illər ərzində həyata keçiriləcək Vətəndaş Bərabərliyi və İnteqrasiya Strategiyasının vacibliyindən və siyasətin konkret mexanizmlərindən, qadınların hüquqlarının qorunmasından, milli azlıqlara informasiyanın çatdırılmasında jurnalistlərin rolundan, azlıqların seçkilərdə Gürcüstanın tamhüquqlu vətəndaşları olaraq iştirakından söhbət açıblar. Çıxışçılar qeyd ediblər ki, strategiya sənədi milli azlıqların yaşadığı bölgələrdə əvvəlcədən müzakirə olunub və irəli sürülən problem və təkliflər nəzərə alınıb.

Sənədin təqdimatından sonra qeyri-hökumət təşkilatlarının, media və yerli hakimiyyət orqanlarının nümayəndələri və Gürcüstan ali məktəblərində təhsil alan tələbələr, gürcü və Azərbaycandilli orta məktəblərdə çalışan müəllimlər sənədə əlavə etmək üçün yenə də təklif və rəylərini bildiriblər. Tədbirdə nazirlik rəsmilərinə ünvanlanan suallar cavablandırılıb.

Gürcüstan Barışıq və Vətəndaş Bərabərliyi məsələləri üzrə Dövlət Nazirliyinin şöbə müdiri Tina Qoqeliani açıqlamasında yeni strategiyanın müzakirəsi zamanı yeni təşəbbüslər və təklif və rəylər aldıqlarını bildirib: "Bu sənədi həyata keçirməkdə məqsədimiz dövlətin siyasəti ilə bağlı qarşıya qoyduğumuz tapşırıqların yerinə yetirilməsidir. Biz, öncə dövlət dilinin öyrənilməsini əsas məsələ kimi irəli sürür və milli azlıqların dövlət dilini mükəmməl bilməsi üçün istənilən şərait yaradırıq. Düşünürük ki, bu strategiya keyfiyyətli şəkildə həyata keçərsə, qarşıdan gələn illərdə biz məqsədimizə çatacağıq. Biz eyni zamanda strategiya sənədində dəqiq olaraq müxtəlif layihə və proqramlarda milli azlıqların dilində fəaliyyət göstərən məktəblərin inkişafı və kadr çatışmazlıqlarına da böyük diqqət yetirəcəyik. Qeyd edim ki, istər məktəbəqədər müəssisələrdə, istərsə də orta və ali məktəblərdə ən böyük diqqət bütün səviyyələrdə təhsilin keyfiyyətli tədrisinə yönəldiləcək. Bu diqqətə həm də müəllimlərin təkmilləşdirilməsi, kadr hazırlığı, dərs resurslarının keyfiyyətli nəşr olunması da daxil olacaq. Bu zəncirvari inkişafın mərhələli şəkildə həyata keçirilməsində hansısa zəncir qırılarsa, onda təhsilin keyfiyyəti də olmayacaq. Buna görə də hər bir mərhələdə məsuliyyətlə çalışmaq və inkişaf üçün müsbət nəticələr əldə etmək lazımdır və bununla biz problem məsələləri də həll edəcəyik," - deyə T. Qoqeliani bildirib.

T. Qoqeliani həmçinin qeyd edib ki, bölgələrdə milli azlıqlarla məsləhətləşmələrdən və diskussiyalardan sonra qəbul olunacaq "2015-2020-ci illər üçün Vətəndaş Bərabərliyi və İnteqrasiya Strategiyası" sənədini Gürcüstan hökumətinə təsdiq üçün təqdim edəcəyik.

**N. Məmmədzadə**

# Rusiya ilə ABŞ kosmosu da bölüşdürdü

***Rusiya üçün prioritet Ay, ABŞ üçün isə Marsdır.***



Rusiyanın federal kosmik agentliyi "Roskosmos"un rəhbəri İqor Komarov kosmosun araşdırılması haqqında maraqlı açıqlamalar verib.

O, 14-15 il sonra Rusiyanın Ayı araşdırmaq üçün pilotlar göndərəcəyini deyib. Komarov kosmosun araşdırılması sahəsində ABŞ-la əməkdaşlığın mümkün olduğunu da bildirib.

"NASA üçün prioritet Marsdır. Biz isə öz növbəmizdə Ayı özümüzə prioritet seçmişik. Ona görə də biz iki ölkə olaraq bu proqram üzərində birgə işləyə və bir-birimizi əla tamamlaya bilərik", - deyə Roskosmosun rəhbəri qeyd edib.

Onun sözlərinə görə, kosmik sahədə araşdırmalar Rusiya ilə ABŞ arasında əməkdaşlıq üçün əla örnək ola bilərdi. Çünki bunun siyasətlə heç bir əlaqəsi yoxdur. Onun fikrincə, "qlobal layihələri birlikdə reallaşdırmaq daha yaxşıdır". Çünki buna daha az investisiya xərclənsə də, hamı üçün daha çox fayda verir.

İqor Komarov Rusiyaya qarşı tətbiq edilən sanksiyaların Beynəlxalq Kosmik Stansiyanın işinə təsir etmədiyini də deyib. "Bununla belə, Rusiya birgə fəaliyyət göstərmək üçün BRİCS ölkələri (Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika) arasında da partnyor axtarır".

# Səfir: *Əfqanıstan Bakı-Tbilisi-Qars layihəsinə qoşula bilər*

***Əfqanıstan Türkmənistan vasitəsilə Bakı-Tbilisi-Qars dəmiryolu layihəsinə qoşula bilər. Bu barədə Trend-ə Əfqanıstanın Azərbaycandakı səfiri Məhəmməd Taqi Xəlili deyib.***

Səfir bildirib ki, Azərbaycan bu layihənin reallaşdırılmasında əhəmiyyətli rol oynayır: "Bu, Əfqanıstandan idxal və ixrac üçün ən qısa və rahat yoldur".

M.T.Xəlili qeyd edib ki, Azərbaycan və Əfqanıstan arasında əlaqələr sürətlə inkişaf edir və iki ölkə arasında əməkdaşlıq perspektivləri çox şey vəd edir: "Bakıda Əfqanıstan səfirliyinin 2012-ci ildə açılmasına baxmayaraq, xalqlarımızın oxşar cəhətləri sayəsində Azərbaycan və Əfqanıstan arasında əməkdaşlıq yüksək sürətlə inkişaf edir".

Diplomatın sözlərinə görə, Əfqanıstan Azərbaycandan investisiyaların cəlb edilməsində maraqlıdır: "Düşünürəm ki, Əfqanıstan və Azərbaycan arasındakı iqtisadiyyat sahəsində uğurlu əməkdaşlıq inkişaf edəcək. Tərəflər tez-tez qarşılıqlı səfərlər edirlər. Bu ilin fevral ayında Azərbaycanın iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev ilk dəfə Əfqanıstanda oldu".



Əfqanıstanda fəaliyyət göstərən xarici şirkətlərin təhlükəsizlik məsələsinə şərh verən səfir qeyd edib ki, hökumət bu şirkətlərin təhlükəsizliyini təmin etmək üçün əlindən gələni edir: "Hazırda Əfqanıstanda çoxlu xarici şirkət işləyir. Hökumət şirkətlərin və şirkət əməkdaşlarının təhlükəsizliyini təmin etmək üçün hər şey edir. Müəyyən çətinliklərə baxmayaraq, Əfqanıstan hökuməti bu tapşırığın öhdəsindən yaxşı gəlir".

Türkmənistan-Əfqanıstan-Pakistan-Hindistan qaz xəttinin tikinti layihəsinin reallaşdırılmasında irəliləyişlərlə bağlı sualı cavablandıran M.T.Xəlili deyib ki, layihənin 2020-ci ildə həyata keçiriləcəyi gözlənilir: "Bu layihənin reallaşdırılması məsələsində çox şey təhlükəsizlikdən asılıdır. Hazırda layihənin reallaşdırılmasında müsbət irəliləyişlər var".

# Bakı-2015"in məşəli bu ölkəyə verildi

"Bakı – 2015"in Təşkilat Komitəsi Avropa Oyunlarının məşəlini Olimpiya çempionu Dmitri Dovqalenokun başçılıq etdiyi Belarus nümayəndə heyətinə təqdim edib.



Bu barədə Azərtac Belarus Milli Olimpiya Komitəsinin (MOK) rəsmi saytına istinadla xəbər verir.

Məşəl Belarus MOK-un mənzil-qərargahının muzey ekspozisiyasında nümayiş etdiriləcək.

Avropa Oyunlarının məşəlinin dizaynı ənənəvi Azərbaycan döymə üsulunun tətbiqi ilə hazırlanıb. Məşəlin 660 millimetr hündürlüyündə gövdəsi "Bakı – 2015"in brendini – nar ağacını xatırladır.

# Pakistanda istidən ölənlərin sayı 1400-ü keçdi

***Pakistanda davam edən isti havalar 1400 nəfərin həyatına son qoyub.***



"Dawn" qəzeti xəbər verir ki, ölkədə son 3 gündə havanın hərarəti 50 dərəcəyə kimi yüksəlib.

Ən acınacaqlı vəziyyət ölkənin Sind vilayətində müşahidə olunur.

Təkcə ötən gün Karaçidə günvurma diaqnozu ilə 500 nəfər xəstəxanaya yerləşdirilib. İstilər ümumilikdə isə 6 min nəfərə ziyan vurub.

İsti havanın Ramazan ayına təsadüf etməsi və insanların çoxunun oruclu olması da itkilərin sayına təsir edib.

İstidən ölənlərin çoxu az gəlirli və çörək pulu qazanmaq üçün gün altında işləməyə məcbur olan insanlardır.

# Yevqeni Primakov dünyasını dəyişdi

Rusiyanın keçmiş baş naziri Yevqeni Primakov 85 yaşında dünyasını dəyişdi. Rusiya mediasının bildirdiyinə görə, son günlər Primakovun səhhətində ciddi problemlər olub. Rus diplomat, dövlət və siyasi xadim Yevqeni Primakov 1996-1998-ci illərdə Rusiyanın xarici işlər naziri, 1998-1999-cu illərdə isə Rusiya Federasiyasının baş naziri olub. Siyasətdən uzaqlaşandan sonra Primakov elmi işlə məşğul olmağa başlamışdı.



# Almaniyada hicab sərbəst oldu

***Almaniyanın ən böyük əyalətlərindən olan Şimali Reyn-Vestfaliyada hicab qadağası ləğv olunub.***



Verilən məlumata görə, əyalət parlamenti məktəblərdə qadın müəllimlərin hicab geyinə biləcəyinə qərar verib. Bildirilir ki, qadağanın ləğv olunması üçün parlamentdə keçirilən səsvermədə Sosial Demokrat, Yaşıllar, "Piratlar" partiyası ilə Xristian Demokratlar birliyi lehinə, Liberal Azad Demokratiya partiyası əleyhinə səs verib. Bu qərardan sonra müəllimlər ölkənin ən çox əhalisi olan və ən böyük əyalətində hicabla dərslərə girə biləcəklər.

Qeyd edək ki, Şimali Reyn-Vestfaliya əyalətində bir milyona yaxın türk miqrant yaşayır. Federal Konstitusiya məhkəməsinin keçən ilin mart ayında məktəblərdə hicab qadağasını prinspial olaraq yasaqlamasından sonra əyalət parlamenti hicabın sərbəst olması üçün işə başlamışdı. Ölkədə hicab qadağasını ləğv edən ilk əyalət isə Bremen olub.

# SOCAR Rumıniyada hər il 10 yanacaqdoldurma məntəqəsi açacaq




Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) yaxın 2-3 il ərzində Rumıniyada yanacaqdoldurma məntəqələri (YDM) şəbəkəsini genişləndirmək üçün 50 mln. avro investisiya yatıracaq.

"APA-Economics"in məlumata görə, bunu SOCAR-ın sərmayələr və marketinq üzrə vitse-prezidentinin müavini Vitali Bəylərbəyov bildirib.

Onun sözlərinə görə, SOCAR indiyədək Rumıniya iqtisadiyyatına 50 mln. avro yatırıb: "Hazırda SOCAR brendi altına Rumıniyada 32 ədəd YDM fəaliyyət göstərir. Bu ilin sonuna qədər Rumıniyada daha 3-4 YDM açacağıq. Gələn il ərzində isə daha 10 ədəd YDM-in açılması nəzərdə tutulur. Bu tendensiyanı 3-4 il müddətində davam etdirəcəyik. Bununla da, hər il ümumilikdə 10 YDM fəaliyyətə başlayacaq".

SOCAR rəsmisi qeyd edib ki, şirkət yerli bazarda böyük oyunçuya çevrilmək niyyətində deyil, ancaq YDM-in şaxələndirməsini davam etdirəcək.

# Yunanıstanda banklar bağlanır

***Yunanıstanın maliyyə nazirliyi ölkə banklarının fəaliyyəti ilə bağlı bır sıra fövqəladə tədbirlərin həyata keçirilməsini təklif edib.***

Verilən məlumata görə, bu gündən iyulun 6-dək ölkə bankları işləməyəcək.

İyunun 29-dan bankomatlardan istifadəyə qadağa, sonra isə nağd pulun verilməsinə limit qoyulub.

Həmçinin banklararası pul köçürmələrinə məhdudiyyətlərin qoyulması nəzərdə tutulub. Sahibkarların maliyyə əməliyyatları yoxlamadan keçiriləcək.




Fövqəladə tədbirlər ölkədən xaricə milyardlarla avro həcmində pul axını və əhalinin bankomatlardan kütləvi şəkildə pul çıxarması ilə bağlıdır.




**1868** — Səmərqənd Rusiya imperiyasına birləşdi.

**1894** — Londonda məşhur körpü Tauer Bric açılmışdır.

**1894** — Koreya Çindən öz müstəqilliyini elan etdi.

**1941** — İkinci Dünya Müharibəsi: Almaniya Ukrayna şəhəri Lvovu işğal edir.

**1960** — Konqo Belçikadan müstəqilliyini elan edir.

**1964** — İlk dəfə olaraq ayın yaxından şəkilini əldə etmək mümkün olmuşdur.

# Dünyamızın dəli dərvişi, yaxud da şair Nizami Paşa Saraclıya salam...

*Şairləri susan bir məmləkətdə*
*xalq başı hayına qalar əlbəttə...*
**N.P.Saraclı**

Nizamii Paşa Saraclının hansı ildə doğulduğunu bilmirəm. Ancaq onu bilirəm ki, ilk şeiri on üç yaşında qələmə alıb. Və həmin o ilk şeirin yazıldığı il də Nizamii Paşanın doğulduğu ildir. Şairin ilk şeirini yazdığı gün doğma kəndi Saraclıya şeir kimi bir işıq düşdü. Əvvəlcə ata-baba ocağını, sonra həyət-bacanı, sonra da yolu-izi, kənd ortalığını – Dağdağanın dibini işıqlatdı, orta məktəb pəncərəsində bərq vurdu, şagirdlərin, müəllimlərin könlünü aydınlatdı, dodaqlarında təbəssümə döndü... Az sonra bu işıq bütün Börcala – Borçalını bürüdü, qurd gözünün parıltısı kimi dərvişlər, elat köçləri görmüş dağ-aran yollarına güzgü tutan və qaranlıqları aydınlada-aydınlada arxasınca gələnlərin göz görümünü genəldə-genəldə həyata, yaşayışa, gün-güzəran qayğısına hopub göyərdi, çiçək açdı, bar gətirdi... Bu gün Saraclıda doğan o işıqdan Azərbaycanın hər guşəsinə, Turan dünyasının hər köyünə, kəndkəsəyinə bir zərrə düşüb. Şairin səsi hər yanda eşidilir, nəfəsi hər yanda duyulur.



Nizami Paşaya dünyamızın Dəli Dərvişi demişəm. Nəyə görə demişəm, niyə demişəm... Bunu öyrənmək üçün şairin bağrından parıltı kimi, hayqırtı kimi qopan şeirlərini, poemalarını, dastanlarını oxuyub duymaq gərəkdir:

*Dostları vurdum dişə,*
*tikəni çəkdim şişə,*
*mən bişmişi bişmişə*
*qatmadım, Baba Dərviş!*

*-Küsmə dünyadan, – dedin, –*
*ayıl röyadan, – dedin, –*
*rəngdən-boyadan – dedin, –*
*mənə duy, – Baba Dərviş!*

*Nə dedin, o da oldu,*
*içim bir oda oldu.*
*Hər gün bir hikmət doldu*
*odama, Baba Dərviş!*

Cəmisi üç bənd olan bu şeirin məna tutumu, fəlsəfi siqləti, lirik-metodik ahəngi, dramatizmi, dialoqvari yivli inkişafı, hər sözün yerli-yerində işlədilərək oxucuda qəribə hiss oyatması göz önündədir. Şeir gəraylıdırmı? – Yox! Varsağıdırmı? – Yox! Bayatı düzümlü bir süjetə xidmət edən nəzm parçasıdırmı? – Yox! Bəs bu hansı ölçüyə, hansı qəlibə sığışdırılıb?! – Bilmirəm! Bircə onu bilirəm ki, şeirdir. Özü də hər birimizin mənəvi zənginliyə doğru can atan içimizdəki "mənin" şeiridir, nəğməsidir, əzəli-əbədi nəğməsi... Şairi, şeiri duymayanlar, duymaq istəməyənlər şairin və eləcə də, mənim nə demək istədiyimi anlamazlar. Ona görə də onlar bu cür əsərləri oxumasalar yaxşıdır. Çünki oxusalar, istər-istəməz unamadıqları bir dünyayla qarşılaşacaq, mənfur duyğular ilə qara qəlbin burulğanında baş-başa qalacaqlar... Paxıllanıb dıncıxacaqlar, özlərinə yer üzündə yer tapa bilməyəcəklər, rahatlıqları pozulacaq, dişləri bağırsaqlarını kəsəcək... Mən isə bu adamların, insan zümrəsinə aid olduqlarından, istəmirəm ki, onsuz da qara olan qəlbləri daha da qaralsın, şairə qarşı daha da qanıxıb fəsad törətmək fikrinə düşsünlər...

* * *

Burda mən Qarabağ uğrunda gedən döyüşlərin birində, ön cəbhədə düşmənlə əlbəyaxa vuruşmada olan şair haqqında, polkovnik-leytenant Tanrıverdiyevin, mənim yanımda Müdafiə Nazirinin müavinlərindən birinə dediyi sözləri xatırlamaq istəyirəm: "Cənab general, güllə böyük-kiçik, şair-alim tanımır. Nizami Paşa bizim adı dünyayla bir olan, xalqa bizdən daha çox gərəkli bir insandır. Onu güllə qabağına verməklə nə qazanırıq? Xahiş edirəm, əmr ver, şairi geri çağırsınlar. Demək olmaz, itirərik, dünya bizi qınayar. Deyərlər, Azərbaycan xalqı gör nə günə qalıb, şairin güllə qabağına verir. Burda biz onun özündən yox, sözlərindən yararlansaq daha yaxşı olmazmı?". Polkovnik-leytenant generala "məruzə"sini bitirdikdən sonra şairin bir şeirindən bu bəndi əzbər söylədi:

*Biz də bizik, ağır elik,*
*Çəpik-çevik, çəlik-çilik,*
*Birləşərək bölük-bölük,*
*Hu deyin, bəylər, hu deyin!*

Mən bu bir bəndlik şeir parçasını polkovnik-leytenantın dilindən eşitdikdən sonra, bir qələm əhli, hərbçi-jurnalist kimi qürur hissi keçirməklə bərabər, həm də çox qəmləndim və nigaran baxışlarla Nizami Paşanın da olduğu savaş meydanını daha intizarla seyr eləməkdə davam etdim... Orda bizdən təxminən dörd kilometrlik məsafədə ailənin yeganə oğlu, dörd uşaq atası, dul bir qadının saçının birini ağ, o birini qara hörüb böyütdüyü bir türk erkəyi – şair qardaşım savaşırdı... Bəlkə də mənim ona dünyanın Dəli Dərvişi deməyim elə burdan, buranın bu qanlı-qadalı, qarma-qarışıq, həyat və ölüm qoxulu abı-havasından, qeyrət və qürur dolu, qorxu-həyəcan yüklü döyüş bölgəsinin, heç bir qanuna sığmayan, mənfur müharibə qaydalarının məntiqli-məntiqsiz məzmunundan irəli gəlirdi...

* * *

Mənim fikrimcə, şairin vətən uğrunda özü yox, sözləri vuruşmalıdır. Könüllər atlandıran bədii söz bir küncə sıxışdırılmamalı, söz sahibləri özləri əldə silah vuruşmaq zorunda qalmamalıdırlar. Ölkənin və ordunun başında duranlar bilməlidirlər ki, müharibəni yalnız ruh yüksəkliyi daha çox olan tərəf uda bilər. Bu isə səmimi vətənpərvər sözü, xüsusən də ən çevik təbliğat vasitəsi olan şeir və nəğmə ilə mümkün olur. O ki, qalmış Nizami Paşa kimi söz adamlarına onların özü bir əsgər, sözləri isə bir ordunu əvəz etdiyindən belə şəxslərdən vətən gərəyincə yararlanmalıdır. Şairin milli ordumuza ithaf etdiyi "Millətin istiqlal marşı" şeiri on ildən artıqdır ki, yazılıb. "Azərbaycan" qəzetinin və "Hərbi bilik" jurnalının birinci səhifələrində dərc edilib. Bu şeir qardaş Türkiyənin dövlət himninin mətni olan "İstiqlal marşı"ndan heç də geri qalan əsər deyil. Ancaq gəlin görək onu biz gərəyincə dəyərləndiririkmi? Əsla yox! Şeiri bütünlüklə burada vermək imkanı olmadığımızdan yalnız bir bəndini xatırladıram:

*Sönməz sehrini gör haq yaxan çırağımın,*
*Ayı, yıldızı nur üç rəngli bayrağımın,*
*Bir bax, nəbzi vurur üstündə torpağımın,*
*Öndə iki yol var: Qələbə, ya da məzar:*
*Öncə Vətəndir yurd, sonra övlada məzar!*

Mənim fikrimcə belə əsərləri orta məktəb dərsliklərinə salmalıyıq. Ayrı-ayrı vaxtlarda təkrar-təkrar çap edərək xalq arasında mümkün qədər, daha çox yayılmasına nail olmalıyıq. Yetər ki, sovet dövründən qalma bayağı tərənnüm ruhlu şeirlərə gənclərimizin zövqünü korladığı dövrlə səsləşən həyatda daha yaxın insanlara daha məhrəm əsərlərlə üz tutmağımızın vaxtı çoxdan çatıb. Şairin vətənpərvərlik və döyüş ruhunda yazılmış dəyərli şeirləri yüzlərlədir. Ancaq ağzına gücü yetməyən bəzi tənqidçilər və jurnalistlər cəmiyyətdə belə bir fikir formalaşdırmaq istəyirlər ki, guya şairlərimiz "41-45" müharibəsində olduğu qədər indi fəal deyillər. Tamamilə yanlış fikirdir!

* * *

Nizai Paşa Saraclı geniş əhatəli yaradıcılığa malik ustad bir sənətkardır, məhsuldardır. Əsərlərinin keyfiyyəti, hər baxımdan müasir oxucunu qane etməyə qadirdir. Şair dostumun yeganə qüsuru özünü təbliğlə məşğul olmamasında, əsərlərinin öz-özünə yol açacağına arxayın olmasındadır. Bu isə bəlkə də dövrün, müəllifdən, yüksək maddi durum tələb etməyindən irəli gəlir. Axı indi "para"sız heç kim heç kimin kitabını oxumaq istəmir...

* * *

Nizami Paşanın yazdıqları əslində, sadəcə şeir deyil, yüz illər öncə dünyaya səpələnmiş gündoğandan günbatana at sürmüş türklərin hayqırtısıdır. Onun şeirlərinə diqqət yetirsələr Altayda, Çində, Sibiryada... yarasından qan fışqıran ulu türkün səsi eşidilər:

*Dəmirdağda Qurd ana türkü doğubdu azad,*
*Əlinə qılınc verib, altına qısraq bir at.*
*O vaxtdan uçur göydə bir köhlən kişnərtisi,*
*Bir qılınc parıltısı, bir igid nəriltisi,*
*Bu azadlıq həsrəti, bu həyat eşqi türkün,*
*Çıxır, batır yox olur... təkrar doğulur hər gün...*

Nizami Paşa şeir yazmır, türkün ulu keçmişini işıqlandırır, dünənimizdən, bu günümüzdən söhbət açır, vəhy şəklində ayələr, ilahilər söyləyir. Sanki diricə Dədə Qorquddur, Manasdır, Koblandı-Batırdır.

*Bir bax, yapıb getdiyin hər yuvaya*
*öz adını yazır düşmən əli, Türk!*
*Yetir bunca havalandın havaya,*
*hoy günüdü, özünə dön, Dəli Türk!..*

Filologiya elmləri doktoru Ş.Vəliyevin təbrincə desək, "kiçik köyün böyük millət şairi" təpədən dırnağa, qandan iliyə, qafadan könüləcən vətənpərvər olan bir insan, öz doğmaca türkustanından oğul-uşaqlı, nəvənəticəli yuvası dağılmış qartal misalı, vətən göylərində cövlan edir, bu, bəlkə də onun qanadları yorulanacan davam edəcək və bizi illər, əsrlər boyu nəsil-nəsil, yana-yana qoyub bir gün: Salam, torpaq! – deyəcək... Bax, onda kimlər üçünsə "qızıl dövr" adlanan bu dövr sürəkli qınanacaq...

Unudulmaalıdır ki, qaranlıq işığın kölgəsidir, onu hər hansı bir kəsərlə yaralamaq olmaz. Şairin bir-birindən sanballı, bir-birindən dəyərli əsərlərini damarlarından saf ana südü kimi türk qanı axanlardan savayı oxuyan, oxumaq istəyən yoxdur. Çünki bayaq dediyim kimi, oxusalar ürəkləri tab gətirməz, partlayar, çilik-çilik olar. Vaxt var idi ki, türklər dünyaya hökmranlıq edirdilər, insanlara din, dil, mədəniyyət, azadlıq, demokratiya daşıyırdılar. Türk əsgərləri çarıqlarını, patavalarını Hind okeanında, Sakit okeanda yuyar, Misir ehramlarına at belində tamaşa eyləyər, Zevsin Olimpdəki heykəlini sığallayar, Babilistanda asma bağların kölgəsində dincələrdilər. Vaxt gələcək ki, bir zaman babaları atla gəzən yerləri Nizai Paşanın ruhu şeirləriylə gəzəcək, min illərin xatirələrini hər addımbaşı, durna sürüsü kimi, pırıldada-pırıldada gəzəcək...

Şair şeirlərində, poemalarında daha çox kişilikdən, mərdlikdən və millətin qeyrətindən yazır. Çünki özü, bir şəxsiyyət olaraq, bu kimi keyfiyyətlərə malikdir. Vətən dara düşdüyü bir vaxtda hər şeydən, hətta öz nəğmələrindən belə əl götürüb, Borçalıdan gələrək, silaha sarılan şair əlbəttə ki, millətin qeyrətli oğlu, Qarapapaqlar yadigarı bir cəngavərdir. Bütün əsərlərində, yurda, el-obaya, soy-kökə bağlılığı önə çəkən bu cəngavər qələm əhli hər yerdə, hər zaman vətən, millət təəssübkeşi kimi səsini ucaldıb və ucaldır:

*Dağları verdik yada, düzlərə səpələndik,*
*Bu nə ada, nə ada, dağ ikən təpələndik!..*

Və yaxud da:

*Ayrı-ayrı yeyildik bişsək də bir kürədə,*
*Hey Uludağ, Uludağ, Osman Qazi nerədə?!*

Şairin səsi hər yanda, bizə elə gəlir ki, Tanrı qatında da eşidilir. Ancaq inanırıq ki, onun səsi daha çox özündən sonra eşidiləcək. Çünki bu gün səsi öz arxasınca sel kimi ilğıyıb gələn Nizami Paşanın, yarın özü dayananda, bu səs seli başından aşıb daha sürətlə çağlayacaq... Bu isə şair şəxsiyyətinin ucalığından şəlalə kimi tökülən səs və söz nəhritək təsəvvürə gəlir.

Əsil dərvişlər Tanrının ən sadiq, ən inanılmış və ən etibarlı bəndələrindəndir. Tanrı bəndələrinə demək istədiklərini Qurani-Kərim vasitəsiylə göndərsə də, bu müqəddəs kitabı oxumayanların sayı oxuyanların sayından çox oldu. Odur ki, dərvişlər köməyə gəldilər, qapı-qapı gəzdilər, məclislərdə, meydanlarda xalq sözünü, haq sözünü danışdılar, düzü-düz, əyrini-əyri qələmə aldılar. Xalqı qəflət yuxusundan silkələyib oyatmağa, özünü tapmağa, haqqa tapınmağa, səslədilər. Xalq sözü, haqq sözü deyənə dəli dedilər. Dərviş qiyafəsində el-el, oba-oba gəzənlər əslində millətin müəllimi və bir növ canlı, özüyeriyən ensiklopedik kitabları idilər.

Bu gün isə mənim dərviş şair kimi tanıdığım və qələminə baş söykədiyim, and yeri bilib, sözünün istisinə isindiyim N.P.Mutlutürkün kitabları evləri dolaşır, obaları, mahalları gəzir, ölkə sərhədlərinin hüdudları kənarında elçilik missiyası yerinə yetirir... deməli öz dərvişlik görəvini ləyaqətlə, usanmadan həyata keçirdir...

Bu məqalənin bir qədər qısa variantını "Dünya yaxşı adamların çiynində durur" adlı kitabımda çap etdirmişdim. İndi bir az genişləndirdim. Bu da on ildən artıq tanıdığım şair dostumun ürəyimdə tutduğu yer kimi oldu... Biz bu müddətdə çox oturub-durmuşuq, çörək kəsmişik, çay içmişik, hərdən içki məclisləri də qurmuşuq. Və bu vaxt ərzində duyğuları bulaq kimi qaynayan, bu dünyanın, bu yer üzünün dəli dərvişi sayılan, yaşı əllini çoxdan ötsə də öz uşaq təmizliyini, öz kənd sadəlövhlüyünü, öz ürək saflığını hələ də özündə saxlayan, ondan bircə xışma da qara yellərə, azğın rüzgarlara verməyən, 16 dəyərli kitab müəllifi, dörd beynəlxalq mükafat laureatı Gürcüstanın "Şöhrət" ordeninin kavalerini sən demə, mən hələ yaxşı tanımamışam. Polkovnik-leytenant İsmayıl Həkimlinin Nizami Paşaya həsr etdiyi "Atlanış" şeirini oxuyandan sonra quruyub yerimdəcə heykələ döndüm. Özümü bir andaca min illərin o tayında Orta Asiya türklərinin arasında hiss etdim. Atı qanadlı ulu babalarım yaraq-yasaqlı gəlib bir-bir gözüm önündən keçdilər. Şair Nizami Paşayla yan-yana, omuz-omuza keçdilər. Sağ əlimi gözüm üstünə qoyub min illərin o tayından bu günümüzə baxdım. Bu günümüzə yazığım gəldi. Şairi Haramı dağlarında haramılarla qılınc döyüşdürən bir xalqın bədəsil oğullarının künc-bucaqda, arvad tumanı altda gizlənən nankorlarını seyr etdim, üzüldüm, ürəyim ağzıma gəldi... Yaşaran gözlərimlə İsmayıl bəyin əksini gördüm, yenidən onun hayqırtısını eşitdim. General Tağı Əhmədovun şairin əmək cəbhəsindəki sücaətindən söz açan könül çırpıntısını ifadə edən "müşairə"sini duydum və professor Nizamii Cəfərovun Nizami Paşanın yaradıcılığına verdiyi misilsiz dəyərlə təskinlik tapdım. Alim qardaşım Ş.Vəliyevin hələ o vaxtlar köydə yaşayan N.Paşa haqqında dediyi "kiçik köyün böyük millət şairi" kəlamını bir daha öpüb göz üstünə qoydum. Sevindim, qürurlandım...

**Vaqif İsaqoğlu,**
***hərbi jurnalist***

*Əziz oxucu, burda şairin həyatı və yaradıcılığı ilə bağlı yazdığım fikirlərimi yekunlaşdırıram. Son olaraq onu demək istəyirəm ki, Paşamızın həyat və yaradıcılığı bir-biri ilə tam üstə düşdüyündən, mən onları bir-birindən ayırmadım – bir-birinə sarmaşıqlı verdim. Of, nə gözəl olardı bütün insanların sözü ilə əməli beləcə, Nizamii Paşa şəxsiyyətində olduğu kimi, üst-üstə düşəydi, canbir, dilbir olaydı!..*

---

### Nizami Paşa Saraclıya

***Daha nələr yazım, Nizami Paşa?..***
***...padşahı pürxətər poşası yıxdı.***
***Nə desən varımdı: həsrət... həyəcan...***
***bircə ümidimin paşası yoxdu.***

***Eyy !.. indi qəhrəman olmağa nə var:***
***o vaxt bircə diri-duru gələydi!***
***Deyirdim xilaskar gözləyənlərtək:***
***oğuz bəylərinin biri gələydi!***

***Bu indi belədi – asan və ucuz:***
***əyri də Əyriqar yoluna çıxır.***
***Bir əmanətim var "ucqar" adında;***
***durub gəlininə, oğluna çıxır...***

***Beynəva dünyanı birdən düzəltmək***
***nədi ki qüdrətin qaib əlində?***
***Bir də Başkeçiddən Qaraçöpəcən***
***qalmasın heç nökər-naib əlində!..***

***Daha nələr yazım, Nizami Paşa?..***
***...qoşa qanada da qoşa ox olur.***
***And olsun qələmə, yazılanlara! –***
***paşa gələn təki poşa yox olur...***

**İbrahimxəlil**

---

**Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi görkəmli şair Nizami Saraclını 65 illik yubileyi münasibətilə təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür və yaradıclıq uğurları arzulayır!**

# İradə və İnam

Sizcə nədir məsafələr? Bizi bir-birimizdən ayıran? Ya bizə birlikdə olduğumuz anların dəyərini bildirməyə çalışan?

Nədir o? Bizim qatı düşmənimiz? Bəlkə, əslində var olub, görmədiklərimizi bizə göstərməyə çalışan dostumuz?

Məsafə hər şey, həm də heç nədir. Məsafə dediyimiz bu məfhum ancaq cisminiz üçün keçərlidir, ruhunuz üçün deyil. Önümüzdə çətinliklər, məsafələr durursa əgər, öz arzularımızdan, hədəflərimizdən əlimizi üzməyimiz iradəsizlikdən başqa bir şey deyildir.

Hər gün nə qədər xəyallarımız olur gerçəyə sığmaz, amma bir gün bir gerçək olar xəyallara sığmaz.

Hədəfi dəqiq olmayan insanın hərəkətləri sərxoş odunçunun ağacı yonmasına bənzəyir.

**Qaraqan**

Əgər məqsədiniz varsa, bunun üçün içinizdə inam, əzm də olmalıdır. Çətin və mümkünsüz kimi düşüncələrə qapılmayın, iradəli olun.

Uzaq və imkansız görünən bir şey, bir anda yaxın və mümkün ola bilər.

**Tolstoy**

Biz nə qədər inkar etsək də ətrafdakıların'ın fikirləri, qınaqları bizim həyatımızda rol oynayıb, bizi izləyir və şüurumuza təsir edir, ya da etməyə çalışır. Bunun nəticəsində kimisi öz planlarından daşınır, kimisi də başladığı bir işi yarımçıq qoyur. Bizim bədbəxtçiliyimiz, zəif nöqtələrimiz də elə buradan başlayır.

Bu bizi yanlışlardan da qaytara bilər, bizi qarşıda gözləyən, qazana biləcəyimiz uğur və nailiyyətlərdən də məhrum edə bilər. Özünüz olun, başqalarının hər ağızburun əymələrinə fikir verməyin. Biz həyatda bəzən elə məqamlarla qarşılaşırıq ki, bizə elə şans verilir ki, əgər ona tərəf biraz addımlasaq həyatımız dəyişib, hədəflərimizə daha yaxın ola bilərik, amma bunun üçün də bəzi seçimlər edib, addımlar atmalıyıq. Odur ki, biz iradəmizin idarəsini öz əlimizə almağı bacarmalıyıq.

Bilirsiniz necədir, hərdən insan nail ola biləcəyi şeyləri öz şüurunda heç cəhd etmədən elə həkk edir ki, "mən bunu bacara bilmərəm", "mənlik deyil", "mən nə edim-icazə vermirlər"

-Stop, Stop!!!

Sən bu vaxta qədər mümkünsüz gördüyün çox şeyi bacara bilərsən. Sadəcə, bir az cəsarət, bir az özünə inam və artıq sən arzularına bir addım daha yaxınsan. Yetər ki, istə, cəhd et, çalış.

Əsas odur ki, sizin həyatda arzunuz, hədəfləriniz olmalıdır, bilməlisiniz bu həyatda nəyə nail olmaq istəyirsiniz. Və bunun üçün də var gücünüzlə, iradənizlə çalışmalısınız.

Ümid edirəm ki, söhbətimiz sizdə müsbət təəssürat yaradacaq və bu söhbətimiz özünüzə inanmağınızın, cəhd etməyinizin, çalışmağınızın nə dərəcədə vacib olduğunu anladıb, sizə hər zaman uğur gətirəcəyini xatırladar.

***Sonda:***

*Cəsarət inamın yarısıdır. İnandığın amma edə bilmədiyin bir şeyə cəsarət etsən, işin yarısını həll etmiş olarsan.*

**Elcan Hacıyev**

# "Şeyx Sənan" əsəri ilk dəfə gürcü dilində səhnəyə qoyulacaq

***Görkəmli dramaturq Hüseyn Cavidin "Şeyx Sənan" əsəri ilk dəfə gürcü dilində səhnəyə qoyulacaq.***



Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının (ADAMDT) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ADAMDT və Gürcüstanın K.Marcanişvili adına Akademik Dram Teatrının birgə layihəsi olan "Şeyx Sənan" faciəsi hər iki teatrda Azərbaycan və gürcü dillərində tamaşaya qoyulacaq. Əvvəlcə Bakıda, sonra isə Tbilisidə nümayiş olunacaq tamaşanın birinci hissəsi Azərbaycan dilində, ikinci hissəsi isə gürcü dilində təqdim ediləcək.

"Şeyx Sənan" faciəsi gürcü dilinə tərcümə edilib və əsərin gürcü dilində olan nüsxəsi Gürcüstandan Azərbaycana göndərilib.

# Marneulinin musiqi məktəbi 55 illik yubileyini qeyd etdi



***Marneuli Mədəniyyət Evində musiqi məktəbinin 55 illik yubiley gecəsi təşkil olundu.***

Tədbir çərçivəsində musiqi məktəbinin pedaqoqları və şagirdləri tamaşaçılar qarşısında insanların xatirəsinə həkk olunmuş musiqi parçaları səsləndirdilər.

Yubiley gecəsində Marneuli bələdiyyəsinin, icra hakimiyyətinin rəhbər şəxsləri, elmi-mədəni təbəqənin nümayəndələri və digər dəvət olunmuş qonaqlar iştirak etdilər.

Tədbirin sonunda musiqi məktəbinin direktoru İrina xanım Samxaradze qonaqlara dərin təşəkkürünü bildirdi, tədbirdə çıxış edən hər kəsə gələcək işlərində uğurlar arzuladı

Musiqi məktəbinin yubiley gecəsi bəstəkar Qia Qançelinin "Səma rəngli dağlar yaxud inanılmaz xəbər" kinofilmindən məşhur bəstəsi ilə sona çatdı.

# Ən qədim Quran qaresinin səs yazısı tapılıb

***Müqəddəs Qurani-Kərim qaresinin 130 il bundan əvvələ aid olan qədim səs yazısı tapılıb.***

AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, müqəddəs Kəbədə ayələri oxuyan naməlum qarenin səsi fonoqrafla 1885-ci ildə yazılıb.

Audioyazı həmin il Niderland hökumətinin təqaüdü ilə Məkkəyə gələn islamşünas Kristian Snuk Qürxonya tərəfindən qeydə alınıb.

İslam dinini qəbul etməsi ehtimalı olunan şərqşünasın Əbdül Qaffar adı ilə də tanınması istisna edilmir.



Beş ay müqəddəs şəhərdə qaldığı bildirilən alim burada bir sıra çəkilişlər edib, müxtəlif audioyazıların qeydiyyatını aparıb.

Xatırladaq ki, 1877-ci il noyabrın 21-də Tomas Edison tərəfindən yaradılmış ilk fonoqraf cihazı səs yazısı aparatıdır. Aparat səsi yazarkən fırlanan barabanın üzərindəki silindrik formalı spiral da açılır ki, bu da nəzərdə tutulan səs yazılarını asanlıqla qeydiyyata ala bilir.

*Mövqe*

# Məhkumların hüquqları dövlət səviyyəsində qorunur



Məhkum deyiləndə, hər kəs beynində bir obraz canlandırır. Qara nimdaş paltarlı, üzü tüklü, qolu qandallı, hər şeydən məhrum olunmuş şəxs. Bir sözlə, ona insan demək olmaz; amma burada yanılanlar var. Məhkumların əksəriyyəti cəmiyyətdən müvəqqəti təcrid olunub. Onların bir qismi ilk dəfə, bəlkə də təsadüfən cinayət törədib. Ümumiyyətlə, vətəndaşın müəyyən müddətə azadlıqdan məhrum edilməsi, heç də onun cəmiyyətdən silinib atılması demək deyil. Onların yenidən sağlam cəmiyyətə qayıtması üçün müəyyən cəza müddəti təyin olunur və bu müddətdə çoxlarının ağlı başına gəlir. Amma elə insanlar da var ki, ümumiyyətlə həyatını həbsxanasız keçirə bilmir. Hətta qəsdən cinayət törədib, "içəri" girənlər də olur. Belə insanlar tamamilə başqa kateqoriyaya aiddir, amma onlar da insandır.

Son vaxtlar məhkumların hüquqları ilə bağlı tez-tez müxtəlif fikirlər səslənir. Artıq cəmiyyətdə məhkumların da bir insan olduğu dərk edilir və onların hüquqlarının qorunması ilə bağlı tədbirlər görülür. Belə ki, bu yaxınlarda Gürcüstanın cəzaçəkmə müəssisələrində cəza çəkən etnik məhbuslara Gürcüstanın Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət Nazirliyinin təşkilatçılığı ilə ana dillərində nəşr olunan qəzetlərin veriləcəyi xəbərləri yayıldı. Bu təşəbbüs Gürcüstanın Cəzaçəkmə və Probasiya Məsələləri üzrə Nazirliyi ilə razılaşdırılıb. Belə ki, məhkumlara həftədə bir dəfə Azərbaycandilli "Gürcüstan", "RegionPress" və erməni dilli "Vrastan" ("Gürcüstan") qəzetləri çatdırılır. Bundan başqa, Gürcüstanın Barışıq və Vətəndaş Bərabərliyi üzrə Dövlət Nazirliyinin etnik azlıqların məsələləri üzrə müşaviri Zaur Darğallının bildirdiyinə görə, bu addım həbsxanalarda cəza çəkən məhkumların ölkədə baş verən hadisələr haqqında məlumatlanmaq məqsədi daşıyır. Daha sonra o qeyd edir ki, həbsxanalarda məhkumların məşğulluğunu artırmaq və cəmiyyətə inteqrasiyası üçün müxtəlif proqramlar hazırlanıb. Fikrimcə, bu çox böyük, təqdirəlayiq haldır və alqışlanmalıdır. Ancaq mənim məhkumların hüquqları ilə bağlı başqa fikirlərim var. İndi belə bir məsələ ortaya çıxır: görəsən məhkumları müvəqqəti evə buraxmaq olarmı? Məsələn, məhkumun ailə üzvləri, qohumları rəhmətə gedərsə, o da müəyyən nəzarət altında yas mərasimində iştirak edə bilər. O cümlədən, məhkumun yaxınlarının xeyir işində iştirak etməsi də mümkündür. Bundan başqa, məhkumun ailə üzvlərindən biri xəstə olarsa, onu xəstəyə baş çəkmək üçün evə buraxmaq olar. Amma bunu bütün məhkumlara şamil etmək mümkündürmü?. Nəzərə alaq ki, artıq Avropa ölkələrində və digər demokratik dövlətlərdə belə qaydalar tətbiq olunur və məhkum hətta adi halda da qısamüddətli məzuniyyətə buraxılır, amma müəyyən qaydalar əsasında. Yəni, məhkumun törətdiyi cinayət, onun neçənci dəfə məhkum olunması, həbsdə olduğu müddətdə davranışı və digər xüsusiyyətlər əsas amillər kimi nəzərə alınır.

Xarici, sivil, demokratik dövlətlərdə məhkumların məzuniyyətə buraxılması prosesi hələ bir neçə il bundan əvvəl həyata keçirilir. Həmin dövlətlərdə də, məhkumların törətdiyi cinayətin ağırlığı və digər əsas xüsusiyyətlər nəzərə alınır. Əminik ki, bu qayda gec-tez Gürcüstanda da tətbiq olunacaq. Çünki bu qaydanın tətbiq olunması, məhkumlara müsbət mənəvi-psixi təsir göstərər. Allah qapılarını açsın!

**ÇİNGİZ QASIMOV**

# Süleyman Dəmirəl vəfat etdi



***Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirəl 91 yaşında dünyasını dəyişib.***

İyunun 17-də, yerli vaxtla saat 02:05-də Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirəl müalicə aldığı Ankara Güvən Xəstəxanasında dünyasını dəyişib.

Türkiyə mətbuatına istinadən verilən xəbərə görə, bu barədə Xəstəxananın məlumatında bildirilir.

"Hörmətli 9-cu Cumhurbaşqanımız Süleyman Dəmirəl, 2015-ci il, mayın 13-də ürək çatışmazlığı və kəskin tənəffüs yolları infeksiyası ilə Xəstəxanamıza yerləşdirilib. Son günlər onun vəziyyəti ağırlaşmış, iyunun 16-da tənəffüs və ürək funksiyalarının kəskin pozulması müşahidə olunmuşdur. Bütün səylərimizə baxmayaraq onun həyatını xilas etmək mümkün olmayıb. Süleyman Dəmirələ Allahdan rəhmət, yaxınlarına və Türk Millətinə baş sağlığı diləyirik", deyə açıqlamada bildirilir.

***Allah rəhmət eləsin!***

# Tbilisidə azərbaycanlı rəssamın sərgisi açılıb

İyunun 16-da Tbilisidəki Parlament Kitabxanasında Gürcüstan Müsəlmanları İdarəsinin (GMİ) və Azərbaycanlıların Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü və təşkilatçılığı ilə həmyerlimiz rəssam Hacı Rizvan İsmayılovun "Şərq müdriklərinin qonaqlığında" adlı rəsm əsərlərindən ibarət sərgisinin açılışı olub.



Tədbirdə Gürcüstanın Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət naziri Paata Zakareişvili, Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze, GMİ-nin şeyxi Hacı Ramin İgidov, Gürcüstanın Qaçqınlar və Məskunlaşma məsələləri üzrə naziri Sozar Subari, Türkiyənin Gürcüstandakı səfiri Ləvənd Gümrükçü, AMM-in rəhbəri Fazil Həsənov, Fransadan gələn rəssam Levan Moisaşvili və başqaları çıxış edərək rəssamın əsərlərində İslam mədəniyyətinin saflığı, möhtəşəmliyi və müasirliyinin, həqiqət və irfan yolunun əks olunduğunu bildiriblər.

Fransadan gələn rəssam Levan Moisaşvili çıxışında gənc rəssamın əsərlərinin saflıqdan yarandığını bildirib: "Mən hər an ona dəstək olmağa hazıram", –

Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze, həmçinin Türkiyənin Gürcüstandakı səfiri Ləvənd Gümrükçü rəssamın bir neçə əsərini alacaqlarını bildiriblər.

Gürcüstanın Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət naziri Paata Zakareişvili rəsm əsərlərini yüksək dəyərləndirib: "Bu əsərlər yaddaqalan, sevindirici, həmçinin düşündürən əsərlərdir. Həmvətənimizin sərgisindən qürur duyuruq. O, İslam mədəniyyətini təbliğ edir. İslam mədəniyyəti böyük və müasirdir".

Tədbirdə çıxış edən rəssam Hacı Rizvan İsmayılov iki gün bundan əvvəl Tiflisdə baş verən təbii fəlakət zamanı həlak olan insanların ailələrinə və yaxınlarına başsağlığı verib və tədbiri təşkil edənlərə minnətdarlığını ifadə edib.

Qonaqlara Hacı Rizvan İsmayılovun bir neçə gün bundan əvvəl işıq üzü görmüş rəsmə əsərlərindən ibarət kataloq hədiyyə olunub.

Qeyd edək ki, sərgidə rəssamın 73 rəsm əsəri nümayiş olunub. Sərgi iki gün davam edib.



Tədbirdə diplomatik korpus nümayəndələri, ziyalılar, din xadimləri, Tbilisi sakinləri və gənclər iştirak ediblər.

**N.Məmmədzadə**




## Rəssamın albom-kataloqu işıq üzü gördü

Tanınmış rəssam Rizvan İsmayılovun əsərlərinin sərgisi ərəfəsində "Rəssam rənglərlə şeir yazan bəstəkardır" adlı albom-kataloqu Tbilisidə nəşr edilmişdir. Marneulidəki "Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kitabxanası" seriyasından üç dildə – Azərbaycan, gürcü və ingilis dillərində buraxılmış bu maraqlı nəşrə rəssamın 100 ədəd rəsm əsəri daxil edilmişdir.

Albomkataloq müəllifin "Yaradıcılıqda əsas hədəflərim" adlı ön sözü ilə açılır. Nəşrin redaktoru Binnət Əlioğlu, tərtibatçı-dizayneri Əkrəm Qəhrəmanovdur.

**"RegionPress"**

# Gürcüstanda APA əməkdaşının kitabının təqdimatı keçirilib

***Gürcüstanda APA-nın Gürcüstan bürosunun müxbiri Nizami Məmmədzadənin "Çələbilər" kitabının təqdimatı keçirilib.***




Gürcüstan Azərbaycanlı Jurnalistlər Birliyinin və Azərbaycanlıların Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü və təşkilatçılığı ilə keçirilən tədbirdə ziyalılar, Rusiyadan, Bakıdan, Tbilisidən gələn qonaqlar, QHT təşkilatlarının nümayəndələri, məktəb müəllimləri və jurnalistlər iştirak ediblər.

Tədbiri AMM-in "RegionPress" qəzetinin redaktoru Binnət Əlioğlu açaraq "Çələbilər kitabının müəllifi, AYB-nin üzvü, şair-jurnalist Nizami Məmmədzadənin son illər nəşr olunan kitabları haqqında ətraflı məlumat verib. Sonra kitabın redaktoru, professor, filologiya üzrə fəlsəfə doktoru Mahmud Hacıxəlilov, AMM-in rəhbəri Fazil Həsənov, araşdırmaçı-jurnalist Mirzə Məmmədoğlu, yazıçı Əli Abbas, ziyalılardan Mirağa Mustafazadə, Suddarxan Kazımov, şairlərdən Güllü Tomarova, Qurban Əzizli, Rustavidə fəaliyyət göstərən "Salam" Mədəni Xeyriyyə Mərkəzinin rəhbəri Maya Rəcəbova, "Borçalı" İctimai Birliyinin Gürcüstan nümayəndəsi İsrafil Bayramov və başqaları çıxış edərək "Çələbilər" kitabının Borçalı tarixinə həsr edildiyini və mövzunun müasir tələblərə cavab verdiyini, vaxtında yazıldığını və daha çox araşdırmağa ehtiyac duyulduğunu bildiriblər. Çıxışçılar Borçalıda qəbirüstü abidələrin məhv olmaması və tarixin keçmiş səhifələrinə qayğı göstərilməsi, həmçinin tarixi mövzulara müraciət edib tariximizi yaşatmaq və onu gələcək nəsillərə ötürməyin vacibliyini vurğulayıblar.

Kitabın redaktoru, professor, filologiya üzrə fəlsəfə doktoru Mahmud Hacıxəlilov bildirib: "Naməlum səbəblərdən bir çox kəndlər xəritədən silinib. Xaccaoğlu, Çələbilər, Şamalı, Bəyazid kəndləri buna misaldır, lakin biz çox sevinirik ki, bu kəndlərdən çıxan məşhur adamlar xəritədən silinən kənd adlarını hələ də yaşadırlar".

Tədqiqatçı-jurnalist Mirzə Məmmədoğlu müəllifin müraciət etdiyi mövzunun vacib olduğunu qeyd edib: "Tarix faktı sevir. Tarixə yazıçı təxəyyülü ilə yanaşmaq lazım deyil. Bu kitab faktlarla yazılan yaxşı başlanğıcdır" .



AMM-in rəhbəri Fazil Həsənov müəllifin tarixi əhəmiyyətli bir mövzuya toxunduğunu bildirib: "Bu kitabda qaldırılan tarixi məsələ gələcəkdə tarixçilərimizə mövzu verə bilər. Çələbilər kəndi İpək Yolunun üstündə yerləşib. Min illər bundan öncə Çindən və Şərq ölkələrindən gəlib-gedən tacirlər öz mallarını bu ərazidən keçiriblər. Məhz buna görə də müəllif ərazidəki Damğaçı düzünün adını kitabında çəkib və burada gömrük məntəqəsinin yerləşdiyini vurğulayıb".

Tədbirdə Rustavi şəhərindəki 18 nömrəli Azərbaycan orta məktəbinin sagirdləri Anfisa Əliyeva, Aysel Əhmədova, Süleymanova Güllü, Məmmədova Zenfira müəllifin şeirlərini əzbər söyləyiblər. Təqdimat mərasimində aşıqlardan Aşıq Nargilə və Aşıq Məsim şair-jurnalist Nizami Məmmədzadənin şeirlərini aşıq havaları üstündə oxuyublar.

Sonda müəllif tədbir iştirakçılarına təşəkkürünü bildirib və nəşr olunan "Çələbilər" kitabını oxuculara imzası ilə hədiyyə edib.

**RegionPress**

# "Sarvan" ürəkləri fəth edir



"Sarvan" folklor ansamblı Türkiyənin Dənizli şəhərində keçirilən 15-ci Beynəlxalq Rəqs Festivalına qatılaraq Gürcüstanı təmsil etdi. Ansambıl festivalda gürcü və Azərbaycan xalq rəqsləri və mədəniyyət nümunələri nümayiş etdirdi.

Dənizli şəhər Bələdiyyəsi tərəfindən təşkil olunan festivala 11 ölkədən 380-ə yaxın iştirakçı qatılmışdı - Türkiyə, Bosniya və Hersoqovina, Moldova, Makedoniya, Gürcüstan, Kosta-Rika, Kosovo, Meksika, Şimali Kipr Türk Respubllikası, Serbiya və digər ölkələr.

Ansamblın çıxışları böyük izdihamla qarşılanaraq izləyiciləri heyrətə gətirib. Ansamblın bədii rəhbəri Cəmilə Məmmədovanın sözlərinə görə, gürcü və azərbaycan xalq rəqsləri, aşıq mahnıları yerli əhali və xarici təmsilçilər tərəfindən müsbət qarşılanaraq böyük maraq yaradıbdır.

7 gün davam edən festivalın qala gecəsində Gürcüstanı təmsil edən "Sarvan" folklor ansamblına mükafatlar təqdim olunub.

Festivalın Qala gecəsində ölkələrdən seçilmiş ən yaxşı ifaçılar sürpiz olaraq Zeybək rəqsini ifa etdilər.Gürcüstanı isə Aygün Həsənova və Orxan Məmmədov təmsil etdi.

**RegionPress**



# Sevəndə də sərhəd gözləmək...

## (sense)

Dünyanın hansı nöqtəsi olursa-olsun – Argentina, Azərbaycan, Gürcüstan, yaxud Yeni Zelandiya – günün bir zəruri tələbatı var: insanın fiziki və psixoloji sağlamlığına məsuliyyətli münasibət!

Sağlam bədəni mehmanxanaya, xəstə bədəni xəstəxanaya bənzədən dahilərin sözləri yerdəmi qalar? Müxtəsəri, sağlamlığımızı qoruyan, bizi fiziki əzablardan xilas edən həkimlərə olan minnətdarlıq hissimiz, təkrətabaq təşəkkürlərimiz dünya durduqca duracaq...

İndi haqqında sizə söhbət açmaq istədiyim İslam həkimlə tanışlığımın qəribə bir tarixçəsi var: iş yerlərimiz yaxın olsa da elə bir mülayim münasibətimiz yox idi. Bir gün bizim təhsil və mədəniyyət şöbəsinin rəhbəri Mikayıl müəllimin bir nəfərlə (həkim olduğunu bilirdim) ustad Aşıq Ələsgər haqqında söykəli söhbətinin şahidi oldum. Yaxından tanımadığım həkim aşığın "Yaşıldı, yaşıl" qoşmasının yaranma mənbəyini özünəməxsus tərzdə izah edirdi; xatırladıram:

*Qafil olma bu bazarın içində,*
*Aldatma özünü varın içində,*
*İbrahim dayanıb narın içində,*
*Güldür solu-sağı yaşıldı, yaşıl...*

Zöhrə (Venera) eşq ilahəsinin adı olduğu üçün bunu da sırğa edib "qulaqdan asmaq" lazımdır ki, insan özünü təkcə soyuqdan, payız küləyindən, yelçəkər yerlərdən, müxtəlif viruslardan gözləməməlidir; həm də arada-sırada eşq ilahəsindən də çəkinməlidir: ona görə ki, zöhrəvi (veneroloji) xəstəliklərin zəmanəmiz üçün hazırda ən böyük və ən təhlükəli problemlərdən biri olduğu sağlam düşüncə sahiblərinin hamısına gün kimi aydındır. Bir sözlə, immun sisteminin pozulmasını Allah heç Mirzə Qotura da göstərməsin!

İslam həkim mənə arada bunu da xatırladır ki, bizdə Zöhrə (Venera) ulduzunun bir adı da Karvanqırandır. Heç olmasa bu filhəqiqət fakt hətta qanmaza belə, çox məntiqli mətləbi ahəstəcə qandırmalı deyilmi?

Söhbətimiz Ümumdünya Səhiyyə Təşkilatının tövsiyə etdiyi sağlam həyat tərzinin üstündə daha çox durduğundan İslam həkim məxsusi vurğulamağı özünə borc bilir ki, sağlam həyat tərzinə müxtəlif gigiyena qaydalarına – şəxsi daraq, diş fırçası, dəsmal və sairədən tutmuş – əməl etmək, təbiət qoynunda həyat keçirmək, kainatla ahəngdar əlaqədə olmaq, idmanla məşğul olmaqla bərabər, həm də saz-söz adamlarımızın, musiqi ustadlarımızın



"nəbzini" tutmağı bacarmaq da lazımdır! Bu yerdə İslam həkim ədəbi yaradıcılığına və şəxsiyyətinə səmimiyyət və hörmətlə yanaşdığı Zəlimxan Yaqubun misralarını söyləməkdən də özünü saxlaya bilmir:

*Mən ürəyi ürək kimi saxlamadım,*
*Hey əritdim, hey çürütdüm, hey qanatdım,*
*Yağ içində böyrək kimi saxlamadım...*

Və:

*Gördü şeir yazıram*
*Ölüm məndən vaz keçdi...*

İslam həkim – arazbarı təkrar da olsa – tövsiyə edir ki, hər bir insan öz bədənini sevsin; dərisindən tutmuş ürəyinə, böyrəyinə qədər! Çünki Allahın əmanəti olan bədənimizə xəyanətimiz əslində həm də məlum vaqifanə əmanətə xəyanət deməkdir! Burası da var ki, dəri təkcə sabunla, ətirlər və şampunlarla təmizlənmir! Burada bir səbr, sınaq, şükr tərəf də var ki, ahəngdar əlaqə olaraq onlara da diqqət tələb olunur!

Hörmətli Mikayıl müəllim indi həmişə hörmətini saxladığım bu həkimlə məni qoşmanın məhz bu yerində tanış eləmişdi. Sonralar onun haqqında yazmaq təkliflərimə aqillərə xas təvazökarlıqla: – Daha vacib işləriniz ola bilər, – demişdi, – gəlin sonralara saxlayaq.

Və beləcə günlər, aylar ötdü...

...İbrahimov İslam Səfər oğlu Gorarxı elinin Alget kəndindəndir. 1978-ci ildə Bakıdakı dünyalarca məşhur N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib. Rustavi şəhərindəki həkimlik fəaliyyəti də daxil olmaqla müxtəlif iş yerləri olub: hamısında da üz ağardıb, yaxşı hörmət, təmiz ad qazanıb. Amma bütün təltif-tərifnamələrin hamısını bir tərəfə qoyuram. İslam həkimin bir özəlliyindən-özünəməxsusluğundan savayı: o da bundan ibarətdir ki, şəxsən mən ömrümdə indiyədək belə saz-söz vurğunu olan, bu səviyyədə xalq dastanları dəstəklisi olan özgə həkim görməmişəm. Təbii ki, hardasa yaxında, ya da uzaqda var, amma etiraf edirəm ki, mən ayrı cür şahidlik edə bilmərəm; çünki hələlik qədim-qayım sözümüzün vaqifanə vurğunu olan "ikinci İslam həkim" rastıma çıxmayıb.

Islam həkim dəri həkimi-dermatoloqdur; yəni tibb elminin dəri xəstəliklərinin diaqnostikası, müalicə və profilaktikası ilə məşğul olan sahəsindəndir. Islam həkimlə söhbətimizdən əvvəl dəri xəstəlikləri ilə bağlı bunları bilirdim ki, dermatologiyanın şərəfli tarixi bir keçmişi olub. Çünki hələ bizim eradan əvvəl yaşayıbyaratmış həkimlər insan bədəninə heç də "bir ət yığını" kimi baxmayıblar.

Islam həkimdən aldığım "dermatologiya dərsləri" çox ibrətamizdir: dəri həkiminin yanına adi bir sızanaq, bir ziyil üçün gələn də var. Xroniki dəri xəstəlikləri sayılan qaşınmalar, göbələk infeksiyası, psoriaz, Vitiliqo xəstəliyi ilə bağlı müalicə həsrətində olanlar da. Zöhrəvi xəstəliklərə gəlincə,

Tərifə yaxın da olsa, bunu da deməyə borcluyam ki, İslam həkimin insanpərvərliyi və halallığı artıq kiçik həcmli qəzet məqaləsinin deyil, bəlkə daha çox – əlbəttə, qalın kitabdan dolayı – qalan kitab yazısının mövzusudur...

**P. S.**

***Mənim indiyədək Gorarxı elinin iki nəfər həkiminin ləyaqətli ömür yolunu qələmə almaq cəhdim olub: Ülkər həkimin və Əmiraslan həkimin. Bu dəfə "növbə" İslam həkimə gəldi. Doğrudur, ustadlar ustadnaməni üç deyiblər, amma hesab edirəm ki, bu qatarda, bu sırada digər şəfa-şəfqət verənlər də var. Təki sağlıq olsun!***

***Bunu da ürəkdolusu ümid edirəm ki, Gorarxı elinin qədirbilən gəncləri də elimizin-obamızın həkim kəhkəşanını öləzimməyə qoymayacaqlar. Sağlamlığa görə məsuliyyət bir gün də onların üzərinə düşəcək. Əsas budur ki, kimə baxıb düzlənmək üçün ünvanımız var!..***

**Ibrahimxəlil**

# Maarif fədaisi və e

Haqqında söhbət açmaq istədiyim şəxs artıq 55 ilə yaxın pedaqoji stajla elin-obanın dərin hörmət və izzətini qazanmış, sadə və təvazökar insan olan Mahal Mustafa oğlu Eminovdur.

Anadan sanki müəllimlik peşəsi üçün doğulmuş Mahal müəllimin əmək kitabçasında 1961-ci ilin avqustun 20-dən I Kosalı yeddiillik məktəbinə tarix müəllimi təyin olunması əmri yazılıb və həmin əmrdən sonra yuxarı vəzifələrə çəkilməsi düz xətt üzrə 2007-ci ilin oktyabrınadək davam etmişdir.

1956-ci ildə A.S.Puşkin adına Tbilisi Dövlət Pedaqoji İnstitutunun (o zamanlar İ.Çavçavadze adına Pedaqoji Universitet belə adlanırdı) tarix, Azərbaycan dili və ədəbiyyatı şöbəsinə qəbul olunan Mahal Eminov yaxşı və əla qiymətlərlə həmin şöbəni 1961-ci ildə bitirib, o zamankı Marneuli RXMŞ-nin müdiri Abbas Kərimovun əmri ilə I Kosalı yeddillik məktəbinə tarix müəllimi təyin olunmuşdur.

Kollektivə tez uyğunlaşan Mahal müəllim kəndin ilk ziyalılarından biri kimi, həmişə işinə məsuliyyətlə yanaşmış və gənclik ehtirası ilə kəndin bütün mədəni quruculuq işlərində fəal iştirak etmişdir. Mahal müəllim o qədər həvəslə işləyirdi ki, sanki o nə vaxtsa rast gələcəyi və yaxud görüşüb söhbət edəcəyi keçmiş qrup yoldaşlarına: filologiya elmləri doktoru, professor, şair Əflatun Saraclıya, filologiya elmləri namizədi, dosent Akif Nuriyevə, Marneuli RXMŞ-nin müdiri işləmiş Alı Rzayevə, Marneuli Rayon Partiya Komitəsinin təlimatçısı Kamal Rüstəmova öz gözəl və nəcib işlərindən söhbət açacaqdır.

Mahal müəllimlə mən artıq qırx ildən çoxdur ki, eyni bir kollektivdə işləyirəm. Onun bütün nailiyyətləri mənim gözümün qabağında olmuşdur. Mən onunla məktəb həmkarlar komitəsinin sədri və dərs hissə müdiri kimi də çalışmışam. Onun əmək fəaliyyətini və qazandığı nailiyyətləri nəzərdən keçirməyi özümə borc bilirəm.

Mahal müəllim kəndimizdə vaxtı ilə təhsildən yayınmış bəzi gənclərin siyahısını müəyyənləşdirib 1965-1966-cı dərs ilində I Kosalı kəndində axşam (növbəli) ümumtəhsil məktəbi təşkil etdi. Maarif Nazirliyinin əmri ilə bir neçə sinifdən ibarət olan həmin məktəb tez bir zamanda respublikada ad-san qazandı. Sevindirici haldır ki, həmin məktəbin məzunları kəndimizin 70-80-ci illərdəki ali təhsilli mütəxəssislərimizin 80-90 faizini təşkil etmişdir.

Onların arasında müəllim, həkim, mühəndis, iqtisadçı, aqronom və başqa ixtisas sahibləri də vardır. Həmin məzunlardan elimizin fəxri, tibb elmləri namizədi, cərrah Rəfael Eminov, şair-publisist Firudin Vəliyev, keçmiş partiya işçisi Dursun Hüseynov, vaxtilə təsərrüfat rəhbərləri işləmiş Gülməmməd Sadiqov və Xudahafiz Əliyev, sovxozumuzun baş aqronomu işləmiş Mirzalı Hacımahmudov, Rusiyanın Stavropol vilayətində böyük bir zavodda baş mütəxəssis olmuş Məhəmməd Zamanov. Bu siyahını daha da genişləndirə bilərik. Bax, bu nailiyyətlərin qazanılmasının başında I Kosalı axşam (növbəli) məktəbinin direktoru Mahal Eminov durmuşdur. Kollektivdə xeyli müəllim çalışırdı. Sağlam və yaradıcı müəllim kollektivinin nailiyyətləri nə Marneuli Maarif Şöbə müdiri Yusif Heydərovun, nədə ki, Gürcüstan Maarif Nazirliyinin Axşam və Qiyabi məktəbləri idarəsinin rəisi Qucecianinin də nəzərindən qaçmamışdır. Məktəb kollektivinin əməyi yüksək qiymətləndirilmiş və Mahal müəllim iki dəfə Gürcüstan müəllimlərinin ali məclisinə-qurultaya nümayəndə seçilmişdir. Əməyi bir neçə dəfə diplom və tərifnamələrlə qiymətləndirilmişdir.

Mahal müəllimin bu nailiyyətlərini rayon maarif şöbəsi yüksək qiymətləndirərək onun vəzifəsini daha da yüksəltmişlər. Artıq 1977-ci ildən Marneuli rayon maarif sistemində onun rəhbərliyinin coğrafi dairəsi genişləndirilərək 11 kənddə yerləşən axşam və qiyabi təhsil üzrə təlim məntəqələrinə müdir təyin etdilər. Mahal müəllim öz müavini və metodisti Hümbət Zamanov və Məmik İsgəndərovla əl-ələ verərək nümunəvi işlər görüb, təlimtərbiyənin keyfiyyətini daha da yüksəltdilər.

**Haşiyə:** Mahal müəllim tələbə ikən institut yoldaşları ilə birlikdə 1959-cu ildə Qazaxıstanın Kustanay xam torpaqların becərilməsində, yəni bir neçə ay taxıl yığımında da iştirak etmişdir. Onun vətənə ilk töhfəsi bu nəcib iş olmuşdur.

Mahal Eminov iki ixtisasa yiyələndiyindən Azərbaycan dili və ədəbiyyatı fənlərini də tədris edir. Həmin dərslərin necə canlı keçdiyinin şahidi olmuşam. Mahal müəllim şeirə həssas olduğu üçün o şeiri (yaxşı şeiri) əzbərləmək üçün 3-4 dəfə oxuyardı. Mahal müəllim S.Vurğunun "Vaqif" dramını tədris edəndə əsərdəki bəzi səhnələri rollar üzrə əzbərdən deyirdi. O qədər canlı söyləyirdi ki, şagirdlər sanki tamaşaya hansısa bir xalq artistinin ifasında baxırdılar. Tarix dərslərində o faktlara əsaslandığı kimi, ədəbiyyat dərslərində də bədii əsərlərin qiraətinə, diksiya və intonasiyasına xüsusi diqqət yetirirdi. Mahal müəllim o vaxtlar axşam məktəbində işləməsinə baxmayaraq gündüz məktəbinin VIII sinif şagirdlərinin iştirakı ilə M.F.Axundzadənin "Hacı Qara", S.Vurğunun "Vaqif" dramını tamaşaya qoyub məktəbin o vaxtkı darısqal sinif otaqlarında kənd camaatına və qonaqlara göstərirdilər.



1981-ci ilin aprelindən Maarif nazirinin əmri ilə Mahal müəllim ona doğma və əziz olan başqa bir kollektivə – I Kosalı orta ümumtəhsil məktəbinə direktor təyin olunur. Uzun illərin pedaqoji təcrübəsinin yüksək nəticələri öz bəhrəsini artıq verməyə başlayır. Məktəbin isitmə sistemi yüksək səviyyədə təmir olunur, məktəbin dörd tərəfi səliqəli şəkildə hasara alınır, məktəbin həyətində gözəl, yaraşıqlı dekorativ ağaclar əkilir, böyümüş ağacların dibi bellənib ahənglə ağardılır. Məktəbin həyətində geniş və yaraşıqlı bir idman meydançası salınır.

Müxtəlif dərs illərində Marneuli RXMŞ-nin pedkabinetin işçilərinin iştirakı ilə məktəbdə geniş şəkildə pedaqoji şuranın iclasları keçirilirdi. Məktəbdə qabaqcıl təcrübəyə və yeni tətbiq olunan metodlar: problemli situasiya, "dərsi dərsdə" və s. kimi düşündürücü və yaradıcı metodların müzakirə olunub tətbiqinə geniş yer verildi.

Həmin dövrdə demək olar ki, bütün fənnlər fənn kabinetlərində keçrilirdi. Məktəbin zəngin kimya və fizika laboratoriyaları, biologiya, xarici dil, riyaziyyat və s. kabinetləri var idi. Bütün müəllimlər çalışırdı ki, hər birinin kabineti o birisinkindən daha zəngin və yaxşı tərtib olunsun. Müəllimlər arasında demək olar ki, yarış gedirdi.

Məktəbin daxili tərtibatı da çox məzmunlu idi. Məktəbdə bir-birindən yaraşıqlı və göz oxşayan stendlər var idi: "İkinci dünya müharibəsi və əmək veteranları", "Heç kəs unudulmur, heç nə yaddan çıxmır", "Nəsillərin estafeti", "Məktəbimizin məzunları", "Biz onlarla fəxr edirik" və s.

90-cı illərin əvvəllərində məktəbdən uzaqlaşmış bəzi müəllimləri Mahal müəllim I və II Kosalı orta məktəbləri birləşib bir orta məktəb olanda onları yenidən məktəbə cəlb etmş və onları məktəbin şərəfini uca tutmağa çağırmışdır.

Keçid dövründə məktəbin maddi-texniki bazası həddən artıq acınacaqlı olduğu bir vaxtda Mahal müəllimin təşəbbüsü ilə kənd camaatı və bəzi qeyrətli, imkanlı el oğullarımız öz köməkliklərini məktəbə etmişlər. Hər bir valideyn çalışırdı ki, məktəbin hər bir işində məktəb müdiriyyətinə kömək göstərsin. Məktəbin qızdırılması üçün yanacaq yox idi, lakin qeyrətli eloğlularımız başda Mahal müəllim olmaqla Vəzir Əliyev, Bilal Babayev, Musa Musayev yaxınlıqdakı meşədən icazə ilə odun tədarük edib çətinliklə məktəbə gətirmişlər, soyuqdan məktəbdən yayınma hallarının qarşısını almışlar. Mahal müəllimin verdiyi tərbiyənin, etibarın, məsuliyyətin nəticələri keçmiş şagirdləri tərəfindən yüksək qiymyləndirilirdi. Mən onların adını bir-bir çəkmək istəmirəm, ancaq elimiz onları yaxşı tanıyır. (Bu ayrıca mövzudur). Hətta onların bəziləri deyirdi: Mahal müəllim məktəb üçün nə lazım olsa bizə bildirin, biz çalışacağıq ki,

məktəbə hər vəchlə köməklik edə bilərik.

Mahal müəllimin belə xeyirxah işlərin təşəbbüskarı olduğu bir neçə işlər də var.

Mahal müəllim bu gün də kəndin, el-obanın dəyərli ziyalısı, hörmətli ağsaqqalı, etibarlı eloğlusu və qədirbilən bir övladıdır. Kəndin bütün xeyirxah işlərində fəal iştirak edir. Kəndin infrastrukturunun müsbət mənada dəyişməsinə həmişə əlindən gələn köməkliyi əsirgəmir.

**Haşiyə:** Mahal müəllim yeri gələndə, daha doğrusu ömür yoluna nəzər salanda özünün həm savadlı ali məktəb müəllimlərini, həm də elmin ibtidaisini öyrədən orta məktəb müəllimlərinin də xoş xatirələrlə yada salır.

Tanınmış filosof kimi respublikada böyük nüfuza malik olan, professor Ələddin Həkimov, gözəl

# l ağsaqqalı

ədəbiyyatşünas, ərəb-fars dillərinin gözəl bilicisi, folklorşünas alim Ziya Borçalı, Azərbaycan dilinin tədqiqatçısı və gözəl metodisti Əziz Mursaqulovu teztez xatırlayır və onların ruhlarına xoş sözlər söyləyir. Ali məktəbi bitirməsindən yarım əsrdən artıq vaxt keçməsinə baxmayaraq təmasda olduğu və ya dostluq etdiyi bəzi tələbə dostlarının nailiyyətlərinə və xoş günlərinə həmişə sevinmişdir. Uzun müddət partiya dövlət və ictimai xadim, tanınmış jurnalist S.Süleymanov, filologiya elmləri doktoru, professor M.Çobanov, şair-jurnalist M.Coşqun, şair Ə.Binnətoğlu, uzun müddət təsərrüfat müdiri işləmiş Vəkil müəllim və uzun müddət partiya işçisi olmuş N.Qurbanov və s. Mahal müəllimin əlli illik ömürgün yoldaşı Səyalı Məmiş qızı da uzun müddət I Kosalı orta məktəbində kitabxanaçı kimi fəaliyyət göstərmişdir. Təqaüdə çıxdıqdan sonra şirin-şəkər nəvələrinin tərbiyəsi ilə məşğul olur.

Mahal müəllim ailədə üç bacının bir qardaşı olmasına baxmayaraq ata və anasının vəfatından sonra iki bacısına da ali təhsil almasına yardımçı olmuşdur. Bacısı Eminova Zinyət Mustafa qızı Tbilisi Dövlət Pedaqoji İnstitutunu bitirib təqaüdə çıxana qədər Böyük Muğanlı orta məktəbində ibtidai sinif müəllimi işləyərək həyat yoldaşı ilə birlikdə dörd övlad böyüdüb ərsəyə çatdırmışdır. Kiçik bacısı Eminova Hava Mustafa qızı Bakı şəhərində N.Tusi adına Pedaqoji Universitetin Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirib uzun müddət I Kosalı orta məktəbində dil-ədəbiyyat müəllimi işləmişdir. Elin xeyir-şər işlərində maddi köməkliklərini əsirgəməyən övladları Elçin və Əhmədin balalarının tərbiyəsi ilə məşğul olan Hava müəllim həyat yoldaşı Sadıqov Məhyəddinlə birlikdə indi təqaüddədirlər. Maraqlıdır ki, Mahal müəllimin böyük bacısı Eminova Hilal tam orta təhsil almasa da dörd övladına mərhum həyat yoldaşı Mövlud müəllimlə birlikdə ali təhsil vermişdir. Elə layiqli oğul-qız böyütmüş bacıya əhsən!

Mahal müəllim həyat yoldaşı ilə birlikdə övladlarına mükəmməl təhsil və nümunəvi tərbiyə vermişlər. Dörd övladından üçü ali təhsil almış, yalnız kiçik qızı Eminova Təranə Gəncə şəhərində kompyuter texnikası üzrə ixtisasa yiyələndikdən sonra hal-hazırda məktəbimizdə texniki işçi kimi çalışır. Oğlanları Eminov Mustafa Bakı şəhərində İqtisadiyyat Universitetini, Eminov Rəşad da Bakıda Azərbaycan Neft Akademiyasını bitirmişlər. Qızı Eminova Arzu Bakıda N.Tusi adına Pedaqoji Universiteti bitirərək həyat yoldaşı istedadlı cərrah Rəfael Eminovla ali təhsilli üç övlad böyüdərək xoşbəxt həyat sürürlər.

Sevindirici haldır ki, Mahal müəllimin nəvələri Rusiyanın Moskva və S.Peterburq şəhərlərindəki məşhur universitetlərində təhsil alırlar. Onlardan birinin uğurları daha qəlboxşayandır. Mustafanın kiçik qızı Eminova Turac keçən dərs ilində Moskvada orta məktəbi qızıl medalla bitirib M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Dövlət İdarəçiliyi və Qanun fakültəsinə daxil olub, hal-hazırda əla qiymətlərlə nümunəvi tələbə kimi təhsilini davam etdirir.

Keçmiş şagirdlərindən Musa Əliyev, Qurban Sadıqov, Arifə Hacırəhimova, Əbülfət Abdullayev, Elçin Əliyev, Abdulla Hüseynov, Aygün Eminova və s. bu gün ali təhsilli mütəxəssislər kimi keçmiş SSRİ-nin müxtəlif şəhər və rayonlarında ləyaqətlə çalışır və kəndimizin adını ucaldırlar.

Əməyi Maarif Nazirliyi, rayon rəhbərliyi, kollektiv tərəfindən yüksək qiymətləndirilən Mahal müəllim özünün 42 illik məktəb direktorluğu təcrübəsini və yüksək pedaqoji ustalığını bu gün də öz həmkarlarından əsirgəmir və həmişə onlara bir nümunədir.

Bizə yalnız Mahal müəllimə uzun ömür və can sağlığı arzu etmək qalır. Qoy həmişə o, kollektiv üçün bir mayak olsun! Amin!

**Osman Əliyev,**
***Marneuli rayonundakı Kosalı ümumi məktəbinin metodist müəllimi.***

# Qarslı Aşıq İslam Ərdənər

İslam İsə (İsəxan) oğlu Ərdənər 1921-ci ildə Türkiyənin Qars vilayətindəki Kümbətli (Ladıkars) köyündə yoxsul bir ailədə dünyaya göz açmışdır. Onun doğulduğu Kümbətli köyü Qars şəhərinin günbatan səmtində, ondan təxminən bir-iki kilometr aralıda, Ərzurum yolunun sağ tərəfində 19-cu yüz ilin ikinci yarısında Borçalıdan köçən qarapapaqların məskunlaşdığı bir kənddir. İslamın atası İsə Seyid oğlu əslən dağ Borçalısının Soyuqbulaq (vaxtilə onun dədələri aran Borçalısının Dəmirçihasannı bölgəsindəki Kürüstü Keşəli kəndindən buraya gəlmişlər) kəndindəndir.

Soyuqbulaq kəndi Sovet Ermənistanının Kalinino rayonuna daxil idi. Bu kənd rayon mərkəzindən 15 kilometr günbatan tərəfdə Qaranlıq dərənin ağzı səmtdə, Oy dərəsinin ayağında bölgənin qarapapaqlar yaşayan sonuncu yaşayış məntəqəsi idi. Bura ən yaxın kənd Başkeçidin Yırğançay kəndidir. Yırğançaydan baxanda bu ərazilərdə Borçalı Qarapapaqlarının vaxtilə yaşadığı bir bir çox dədə-baba kəndləri, o cümlədən, Soyuqbulaq, Cücəkənd ovuc içi kimi çox aydınca görünür. Bu üç türk kəndi yüzilliklərdir ki, sac ayağı şəklində bir-birindən 4-5 kilometr aralıda bərqərar olmuşdur.

Sadaladığımız bu kəndlər son dövrlərdə Ermənistan sınırları içərisində qalmış digər yüzlərlə Qarapapaq türklərinin kəndləri kimi 1990-cı illərdəki son məlum olaylar ilə ilgili olaraq məcburi şəkildə öz tarixi dədə-baba yurdlarını birdəfəlik tərk etmək məcburiyyətində qalmışlar.

İslamın anası Laləzər xanım da (İsənin birinci arvadı Növhər xanım vəfat etdiyi üçün, o Türkiyədə yenidən ailə həyatı qurmuşdur) Qarsın Dikmə köyündəki Borçalıdan köçmüş (19-cu yüz il Rusiya-Türkiyə savaşı ilə ilgili) qarapapaqlardandır. Dikmə köyü də Ərzurum yolunun sol tərəfində, Kümbətlidən təxminən 2 kilometr gündoğar səmtdə yerləşir.

Yuxarıda da anlatdığımız kimi, İsə Seyid oğlu İslam hələ dünyaya gəlməmişdən təxminən bir-iki il öncə Borçalıdan sonuncu dəfə Qars tərəflərə qaçqın düşənlərdəndir. Onu da qeyd etmək istəyirik ki, bu son köç sovet hakimiyyəti qurulan zamanlara düşdüyünə görə, sərhədi ancaq çox gizli şəkildə az sayda insan keçmişdir.

İsənin də məqsədi bir çox digər həmyerliləri kimi, Türkiyəyə keçib özünə yurd-yuva qurandan sonra təzədən geri dönüb bütün ailəni aparmaq idi. Lakin həmin vaxtlar, qadağalar bərkiyir, ara kəsilir, bu toyda qalanları o üzə keçirmək mümkün olmur. Elə İsənin faciəsi də bir çox digər həmyerliləri kimi, buradan başlayır: atası Seyid kişi, ilk nikahdan olan körpə qızı Anaxanım və digər ailə üzvləri ömürlük bu tərəfdə - Soyuqbulaq kəndində qaldılar. Sonralar dədəsinin himayəsində böyüyən Anaxanıma sənəd verilərkən məcburi şəkildə (əslində qorxudan) ata adı yerinə Seyid qızı yazdılar. Anaxanım böyüyüb həddi-buluğa çatanda bu sətirlərin müəllifinin də mənsub olduğu Keşəlidəki Qıllözdü nəslindən olan çox böyük hörmət-izzət sahibi Omar Usub oğlu ilə ailə həyatı qurur.

Sadə və yoxsul bir kəndli ailəsində böyüyən İslam İsə oğlu çox gənc yaşlarından meylini bölgədə geniş yayılmış, qarapapaqların ən çox sevdiyi bir sənətə - aşıqlığa salır. Telli saza vurğunluq onu heç vəchlə öz məqsədindən başqa səmtə döndərə bilmir. Öz-özünə qəti bir qərar verir: hökmən aşıq olacağam. Gecəgündüz öz üzərində bərk çalışır, bu sənətdə ətrafındakılardan az-çox nəyisə öyrənə bilir. Zaman keçdikcə gözəl avazı, möhkəm hafizəsi, saz çalmaq bacarığı yavaş-yavaş onu məqsədinə doğru yaxınlaşdırmağa başlayır. Bir də gözünü açanda özünü məclislərdə görür. Ancaq yaxşı bir sənətkar olmaq üçün bunlar kifayət etmir, o mütləq bir ustad sığalından keçməli olduğunu düşünür. Elə elin ağsaqqalları da ona mütləq yaxşı bir ustada qulluq etməyi – çıraq olmağı məsləhət görürlər.

İslamın təxminən 20 yaşı olanda o, özündəki aşıqlıq bacarığına tam güvəndiyi üçün ustada qulluq etmək məqsədilə bölgənin ünlü ozanı Aşıq Qasımın yanına gedir. Aşıq Qasım adı-ünü aləmə səs salmış ozanlar ozanı aşıq Şenniyin oğlu idi.

Böyük ustadın oğlu gənc İslamı hörmətlə qarşılayır, onu çox da ağıra-yüngülə salmır, çək-çevir eləmir, bir neçə hava çaldırır, bir neçə mahnı oxudur. Aşıq Qasımın ona çıraq olmasına razılıq verməsi İslamı çox sevindirir.



İslam Aşıq Qasımın yanında qaldığı günlərdə ustaddan çox şey öyrənir, sənətdəki bir çox sirlərə yiyələnir.

Günlər ötdükcə böyük sənətkarın ocağındakı çıraq – gənc İslam da yavaş-yavaş sənətdə yükünü götürməyə, kamilləşməyə başlayır.

Vaxtı gələndə ustadı onu özü ilə bərabər bütün Qarapapaq ellərini kəndbəkənd gəzdirir, ağır məclislərə aparır. Gənc aşıq da ustadını utandırmır, hər yerdə - getdikləri bütün toy-düyünlərdə onun üzünü ağ edir.

Az zaman içərisində aşıq Qasımın gənc çırağının ünü Qars, Ərdahan, Sarıqamış, İqdır, Çıldır və başqa bölgələrə yayılır. Nəhayət, zaman yetişir, aşıq İslam özü müstəqil olaraq toy-düyünlər aparmağa başlayır. O, apardığı məclislərdə nəinki, saz çalıb-oxuyur, eləcə də ustadlardan eşitdiyi dastanları söyləyir, bədahətən şeirlər deməyə başlayır.

Aşıq üslubunda yazdığı qoşmalardan başqa İslam Ərdənəri tanıtdıran, onu ən çox sevdirən yazdığı təcnisləri bölgədəki Qarapapaqların dilində əzbər olur.

Doğrudur, aşıq İslam Ərdənər çox şeir yazmamışdır, ancaq qələmindən çıxanların hamısı dəyərli şeir nümunələr kimi hamı tərəfindən rəğbətlə qarşılanmışdır.

Aşıq İslam Ərdənər ustad aşıq zirvəsinə yüksəlmiş bir sənətkar olmuşdur. Onun yaradıcılığı təkcə aşıq şeiri üslubunda gözəl əsərlər yazmaq, dastanlar söyləmək olmamışdır. Onun özü ilə bağlı xeyli ibrətamiz hekayələr bölgə əhalisinin dillərindən heç vaxt düşmür.

Böyük sənətkar özündən sonra da keçmiş ustadları kimi, xeyli şagird yetişdirir. Sonradan onlar da ünlü sənətkarlar kimi tanınmış aşıqlar olmuşlar. Belə ünlü sənətkarlardan biri Səbri Şimşəkoğlu olmuşdur. Ondan başqa aşıq Əmrah Nəroğlu, aşıq Ali Rza Ezgin, aşıq Bilal, öz oğlu Musa Ərdənər və s. Aşıq İslamın sənət aləminə bəxş etdiyi böyük töhfələrdir.

Aşıq İslam Borçalıdan qayıtdıqdan dörd il sonra 1976-cı ildə İrana səfər etmişdir. O Təbrizdə 25 gün qalmış, buradakı ünlü aşıqlarla görüşüb, söhbətləşmişdir. Güneyli Aşıq Qəşəmlə xeyli deyişmələri olmuşdur. Aşıq Hasan Kaffari və bir çox iranlı aşıqlarla görüşləri və tanışlığını uzun müddət xatırlamışdır. Amerika, İngiltərə və Almaniyada Ərzurum Atatürk Universiteti ədəbiyyat fakültəsinə gələn araşdırmaçı türkoloqlar tərəkəmə şivəsi ilə maraqlanarkən onlara ancaq Aşıq İslam Ərdənəri məsləhət görmüşlər.

Amerikalı araşdırmaçı Valker, İngiltərəli C.S.Mendi və alman araşdırmaçısı Erhad iki gün boyunca Aşıq İslamla müsahibə aparmış, onu həm danışdıraraq, həm də saz çalıb oxudaraq, şeir söylədərək kasetlərə köçürmüşlər.

Aşıq İslam Ərdənər 1995-ci ildə 74 yaşında dünyasını dəyişmişdir. Onu doğulduğu Kümbətli (Ladıkars) köyündə dəfn etmişlər. Məzar daşının üstündə özünün yazdığı "Dünyanın" şeirinin ilk və son bəndləri həkk olunmuşdur:

*Olmadıysa şahavətin, hörmətin,*
*Nəyə yarar sərvət, malı dünyanın.*
*Bir gün bitər ömür denən müddətin,*
*Əzəldən belədi halı dünyanın.*

*Nə nökər, nə ağa, nə bəy, nə paşa,*
*Kimsə yetirmədi ömrünü başa,*
*İslamın da adı yazılar daşa,*
*Bilinməz ərkanı, yolu dünyanın.*

**M.Kamaloğlu**

# Yeni nəşrlər

## "Kaş ki sevəydin məni"

Bu yaxınlarda Rusiya Federasiyasının Çelyabinsk şəhərindən xoş xəbər almışıq. Həmyerlimiz, tanınmış şair Aslan Gorarxılının "Kaş ki sevəydin məni" adlı şeirlər kitabı Çelyabinsk şəhərindəki fərdi sahibkar "Petrov A.İ." nəşriyyatında işıq üzü görüb. Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının ("AMOR") sifarişi ilə nəşr edilən kitaba şairin əsasən son illərdə yazdığı məhəbbət şeirləri daxil edilmişdir. Kitabın sponsoru həmyerlimiz, Rusiyanın Samara şəhərində yaşayan Mahal Rəsul oğlu Həsənov, redaktoru Əliyar Zeynalov, ön sözün müəllifi "Regionpress" qəzetinin məsul katibi İbrahimxəlildir.

Ümid edirik ki, yazılarına qürbətin qübarı çökmüş istedadlı şair dostumuz Aslan Gorarxılının bu kitabı da poeziyasevərlər tərəfindən rəğbətlə qarşılanacaqdır.




## "Qabal – bura Vətəndir"

İstedadlı şair Fərman Qulamoğlunun "Qabal – bura Vətəndir" adlı kitabı Tbilisinin "Meridian" nəşriyyatında nəfis şəkildə çapdan çıxmışdır. Kitabda Qabal bölgəsinin (Qabal, Gəncəli, Uzuntala, Qaracalar) elmi, ədəbi-bədii folkloru toplusunda tarixi önəmlərdən bugünümüzədək yaranan şifahi və yazılı xalq ədəbiyyatı nümunələri toplanıb. Nərdə klassik el şairlərinin yazıları ilə yanaşı, çağdaş ədəbiyyatımızın tanınmış nümayəndələrinin yaradıcılığı, həmçinin elmi, ədəbi-bədii folklor materialının toplusu öz əksini tapmışdır.

Kitabın oxucular tərəfindən maraqla qarşılanacağına inanırıq.




**"RegionPress"**

*"Aydın Yol" qəzetinin suallarını Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov cavablandırır*



# Əflatun Amaşov: *"Xoşbəxtlik, bəlkə də, çox kiçik məsələlərlə bağlıdır"*

**- Əflatun müəllim, Moskva Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişiniz. İllərdir ki, Mətbuat Şurasına rəhbərlik edirsiniz. Ədəbiyyatla da yaxından maraqlanırsınız, kitab təqdimatlarında iştirak edirsiniz. Tanıyanlar deyir, yaxşı mütaliəniz var. Amma mən istərdim söhbətimizə jurnalistikanın, ədəbiyyatın da, elə ümumilikdə götürdükdə insanın da əsas ifadə vasitəsi olan sözdən, onun daşıdığı informasiyadan başlayaq...**

- Söz əvvəl yaranıb, yoxsa məna? Bu, tarixi mübahisədir. Yəqin, bəşəriyyət durduqca bu sual ətrafında mübahisələr davam edəcək və elə bizim ətraf aləmlə bağlı tam biliyimiz də heç vaxt kifayət qədər kamil olmayacaq. Dünyanın necə yaranması ilə bağlı müxtəlif nəzəriyyələr var. Sirli olduğu üçün də həyat bu qədər maraqlıdır. Biz bilmirik ki, bəşəriyyətin sonu nə zaman gələcək. Amma bu maraqlı məqamdır ki, dünya genişdir, böyükdür. Həyat mürəkkəbdir, ədəbiyyat da bu mürəkkəbliyin inikasıdır. Təsəvvür edin, alimlər hesablayıblar ki, bu gün qəzetlərin bir səhifəsindəki informasiya yükü XVII əsrdə insanın ömrü boyu yiyələndiyi biliyə bərabərdir. Bu gün bədii söz– kitab elektron vasitələrlə insanlara çatdırılır. Yəqin ki, bu proses uzun müddət davam edəcək və o, yeni-yeni formalarda oxucularının görüşünə gələcək. Bunlar texniki məsələlərdir. Amma söz qalır. Hisslər – nifrət, sevgi, paxıllıq ilk insan yaranandan mövcuddur. Bu gün o hissləri insanlara çatdıran vasitələr dəyişib. Məsələn, biz televizora baxırıq, mobil telefondan istifadə edirik, əvvəllər bunlar yox idi. Adi müqayisə aparaq. İndi Londona altı saata uçuruq, yüz il bundan əvvəl bir neçə aya, bəlkə, daha cox müddətə ora çata bilərdik. Hədəf eynidir, amma vasitələr dəyişib. Ədəbiyyatda da belədir. İstər-istəməz onun həyatla ayaqlaşmalı olmasına adamın təəssüflənməyi gəlir. Məsələn, Dostoyevskinin, Tolstoyun əsərlərinin qısa məzmununu bugünkü oxucuya çatdırmaq üçün bütün detalları, ayrı-ayrı səhnələri atmaq lazım gəlir. Hər halda, bu, insanlarda bədii ədəbiyyata həvəsi öldürür, amma mən elə bir dövrün, nəslin nümayəndəsiyəm ki, mənim vaxtımda kitab əlçatmaz olub, sevilib, daha yüksək dəyərləndirilirib. Düşünürəm ki, bizim nəsil bu gün tutduğu mövqeyə məhz oxuduğu kitabların sayəsində gəlib çıxıb.

**- Elektron və səsli kitablara münasibətiniz necədir?**

- Səsli kitabları elə də xoşlamıram. Elektron variantda kitabları daha çox səfərlər zamanı oxuyuram. Daha çox belə deməm mümkünsə ənənəvi kitabları sevirəm. Qoxusu, qalın kitablarda vərəqlərin çətin açılması məni cəlb edir. Bəzən işdə çox yorulanda Sabirin "Hophopnamə"sini də açıb, hansısa şeiri ucadan oxuyuram.

Ümumiyyətlə, məncə, kitab təkcə göz yaddaşına hopmur. Əgər orada təsvir olunan hisslər sənin içinə keçirsə, onları özününküləşdirə bilirsənsə, deməli, o əsər uğurludur. Adətən bu, şeirdə olur. Əvvəlcə sözlər göz yaddaşına, sonra düşüncəyə keçir. Orada təsvir olunanlar nə vaxtsa həyatında baş veribsə, bunu xatırlayırsan, yox, olmayıbsa, onu təsəvvüründə yaşayırsan. Yəni həmin şeirin qəbul olunmasında əksər duyğu üzvləri iştirak edir. Əli Kərimin şeirində belə bir bənd var:

*Nə xoşbəxt imişəm bir zaman, Allah,*
*Xəbərim olmayıb bu səadətdən.*
*Nə xoşbəxt imişəm, nə xoşbəxt, xoşbəxt!*
*Bu gün mən eşitdim dünən həsrətdən.*

İlk baxışdan, şeir sözlərin yanaşı düzümüdür. Amma onları yanaşı necə düzürsən? Sözlər necə obrazlaşır? Şeir insanın içindən gəlməlidir, insanın hissləriylə bağlı olmalıdır. Misala qayıdaq. Xoşbəxtlik duyğusu insan özünü dərk edəndən olur. Yəni hər kəs hansısa məqamda özünü xoşbəxt sayır. Əslində, xoşbəxtlik hissi, bəlkə də, çox kiçik, cüzi məsələlərlə bağlıdır. Nəyinsə qiymətini onu itirəndən sonra bilirsən. Şairin bu şeirdə ustalığı ondan ibarətdir ki, o, həsrəti "dindirir", həsrət ona bir zamanlar nə qədər xoşbəxt olduğunu anladır.

Ümumiyyətlə, şeiri çox sevirəm. Xüsusən Ramiz Rövşəni, Sabir Rüstəmxanlını, Vaqif Cəbrayılzadəni, Zakir Fəxrini ləzzətlə oxuyuram. Gənclərin də yaradıcılığını izləyirəm. Seymur Baycanın, Qan Turalının kitablarını oxumuşam. Qismətin yazılarını da, şeirlərini də bəyənirəm. Şəhriyar del Geraninin şeirlər kitabı çox xoşuma gəldi. Onun

*"Sən axı bilmirsən*
*Hardan biləsən*
*İt kimi darıxmaq nə təhər olur"*

misraları yaddaşımda ilişib qalıb... Məncə, maraqlı tapıntıdır. Burada darıxmaq ifadəsinin fəlsəfi calarları poetik dilə təsvir təsvir olunur...

Bizim nasirlərdən Kamal Abdullanı çox qiymətləndirirəm. Mənim sevdiyim yazıçılar var. Hesab edirəm ki, hər bir insan bədii ədəbiyyatı mütaliə etməlidir. Yalnız texniki fənlərlə məşğul olan, bədii ədəbiyyat oxumayan adam bir qədər quru görünə bilər. Məsələn, hamımız bilirik ki, iki üstəgəl iki dörd edir. Amma ikinin üstə iki gəlib beş almaq üçün ədəbiyyatı bilmək lazımdır. Bu yaxınlarda Marsel Prustun "Svana doğru" əsərini təkrarən oxudum. Günorta idi, kitabı əlimə aldım ki, vərəqləyəm, bir də baxdım ki, artıq hava qaralıb.

**- Dünya ədəbiyyatını daha çox hansı dildə oxuyursunuz?**

- Rus dilində oxuyuram. Ədəbiyyat sevgisi yaxşı müəllimlərin, yazıçıların, mühitin sayəsində yaranır. Yazıçı olmasan da, özünü ədəbi mühitin içərisində hiss edirsən. Bizim dövrümüz elə idi ki, istər-istəməz cəmiyyətdə fikirlər bədii formada ifadə olunurdu. Senzura vardı. Gertsenin bir sözü var, senzura nə qədər güclü olursa, həmin dövrdə bir o qədər güclü ədəbiyyat yaranır. Hazırda bizim cəmiyyət kitab oxumur. Burası da var ki, həmişə yeni nəsil özündən əvvəlkini bəyənmir. Üç yüz il əvvəl Abbas Tufarqanlı da bu barədə yazıb:

*Ay ağalar, bir zamana gəlibdir,*
*Ala qarğa şux tərlanı bəyənməz.*
*Oğullar atanı, qızlar ananı,*
*Gəlinlər də qaynananı bəyənməz.*

Zaman dəyişir və yeni nəsil onunla daha asan ayaqlaşır. Məsələn, bu gün baxırsan ki, 5-6 yaşlı uşaq mobil telefonun proqramına asanlıqla daxil olub istədiyi oyunu seçir. Bəlkə də, yaşlı adam bunu edə bilməz. Zamanla yeni texnologiyalar yaranır. Elm bəşərin inkişafında daha əhəmiyyətli yer tutmağa başlayır. Vaxtilə ərazisi böyük, əhalisi çox olan ölkələr zəngin hesab olunurdu. Sonra iqtisadiyyatı və ordusu güclü olan ölkələr varlı dövlətlər hesab olunmağa başladı. İndi isə o ölkə güclü ölkə sayılır ki, onun zəngin informasiya resursları olsun. Məsələn, ABŞ dünyanı informasiya siyasəti ilə idarə edir. Bu yaxınlarda təhsilin cəmiyyətin inkişafında rolu ilə bağlı əsər oxudum. Orada deyilirdi ki, əgər üç nəslin arasında əlaqələr kəsilirsə, onların bərpası üçün yüz il vaxt tələb olunur. Təsəvvür edin ki, sovet dönəmi bitdi, 80-ci illərin sonunda böyük bir mərhələ başa çatdı, mitinqlər başladı. O mitinqlərdə bütün yaş təbəqələrindən olan insanlar, o cümlədən tələbə və şagirdlər iştirak edirdi. Sonra əhalinin yerdəyişməsi oldu, bəzi müəllimlər Azərbaycanı tərk etdilər. Bütün bunlar cəmiyyətə təsirini göstərdi. Həmin vaxt təhsildə müəyən boşluq yarandı. Dərslər yaxşı keçilmədi. Orta və ali məktəbi bitirənlər, evlənmə yaşı çatanlar evləndilər və övlad dünyaya gətirdilər. Aydın məsələdir, biri var təhsilli insan övlad yetişdirsin, bir də var təhsil səviyyəsi aşağı olan insan övlad böyütsün. Həmin boşluğun fəsadlarını yaşadıq. Müəyyən mənada nəsillər arasında əlaqə də kəsildi. İndi biz bu əlaqələri bərpa etməliyik. Etiraf etməliyik ki, sovet hakimiyyətinin güclü təhsil sistemi vardı. Bu gün də ölkənin ictimai-siyasi həyatında məhz sovet dövründə təhsil alan insanlar mühüm rol oynayırlar, əsas yük onların çiyinlərindədir. Belə bir məqamda təhsilin xüsusi rolu var. Təhsili olmayan, elmə barmaqarası baxan xalqın gələcəyi yoxdur. O, mütləq böyük xalqların içərisində əzilməlidir. Bu gün dünyada birmənalı qaydada elmin dili ingilis dilidir. Dünyada çap olunan elmi ədəbiyyatın əksəriyyəti ingilis dilindədir. Konfranslar,simpoziumlar bu dildə aparılır. Biz inkişaf etmək istəyiriksə - özümüzə məxsus xüsusiyyətləri saxlamaq şərtilə - xarici dilləri, o cümlədən, ingilis dilini mənimsəməliyik. Bunun üçün də kifayət qədər resurslarımız var. Azərbaycan Prezidentinin sərəncamı ilə minlərlə tələbə Avropanın, Amerikanın, Asiyanın yüksək reytinqli universitetlərində təhsil almağa göndərilib. Onlardan xeyli hissəsi vətənə dönür. Bu istiqamətdə dövlət tərəfindən vacib addımlar atılmaqdadır. Hesab edirəm ki, yaradılan səmərəli imkanlardan istifadə etmək hamımızın borcudur.

**- Tezliklə Azərbaycanda I Avropa Oyunları keçiriləcək. Bu oyunların Azərbaycan cəmiyyətinin həyatındakı rolu barədə nə düşünürsünüz?**

- Azərbaycanda keçiriləcək I Avropa Oyunları ilə bağlı ciddi müzakirələr gedir və bu istiqamətdə fikirlərimi mən də müxtəlif yerlərdə, o cümlədən KİV-də bildirmişəm. Hətta yazı da yazmışdım. Bir məsələni qeyd edim: bu oyunların keçirilməsi ilə bağlı qərar verilənədək Azərbaycana bu qədər böyük etimadın göstəriləcəyi çox adamın ağlından da keçməzdi. Elə oyunların Bakıda keçiriləcəyi qətiləşəndən sonra da çoxları təəccüblənirdilər ki, necə olur, ilk Avropa oyunları İtaliyada, Fransadan, İngiltərədə deyil, bizim ölkədə baş tutur. Bu, Azərbaycana göstərilən böyük etimadın göstəricisidir. Amma təbiidir ki, mövcud istiqamətdə məsələlər reallaşmağa başlayanda müəyyən problemlər üzə çıxdı. Bilirsiniz ki, belə tədbirlərə hazırlıq üçün normalda 5-7 yeddi il vaxt ayırılır. Azərbaycan iki ildən də az müddətdə bu işi gördü.

Avropa Oyunlarının Azərbaycan üçün daxili ictimai-sosial tərəfləri var. Amma biz daha çox məsələnin siyasi tərəfləri üzərində dayanırıq. Ölkəmiz üçün belə ciddi məqamda xarici qüvvələr bizə qarşı hücuma keçirlər. Çox ciddi problemlərimiz var. Onlardan ən mühümü torpaqlarımızın iyirmi faizinin işğal altında qalmasıdır. Bir milyondan çox qaçqınımız. var. Dünyanın əksər ölkələri də belə düşünürlər ki, əgər I Avropa Oyunları uğurla keçirilərsə, Azərbaycan xalqının qonşularla dostcasına yaşamaq qabiliyyəti, tolerantlığı dünyaya bir daha bəyan olunacaq və bu, həmin problemlərin həlinə müsbət təsir göstərəcək. Belə bir məqamda, əlbəttə, mötəbər idman hadisəsinə qara yaxmaq, həmin ərəfədə müəyyən problemləri qabartmaq cəhdləri ölkəmizi gücdən salmaq niyyətindən irəli gəlir. Hesab edirəm ki, belə məsuliyyətli vaxtda üzərimizə düşən missiyanı layiqincə yerinə yetirməliyik.

**- Maraqlıdır, özünüz necə, bu oyunlarda iştirak edəcəksinizmi?**

- Əlbəttə, idman meydançalarından oyunları seyr edəcəm. Ümumən, indiki şəraitdə Azərbaycanda idmana marağı olmayan insanın mövcudluğunu təsəvvürümə gətirə bilmirəm. Bizim nəsil daha çox futbola üstünlük verirdi. Hətta deməк olar, futbolla yaşayırdıq. Dünya çempionatına qalan günləri sayırdıq. Bu gün də mən futbol və şahmat çempionatlarını izləyirəm. Tələbəlikdə özüm də futbol oynamışam. Moskvada tələbələr arasında Azərbaycan yığmasında oynamışam və bir müddət də sərbəst güləşlə məşğul olmuşam.

**- Yeri gəlmişkən, Sizi tez-tez premyeralarda – tamaşalarda film təqdimatlarında görmək olur. Dəvət edirlər, yoxsa özünüz gedirsiniz?**

- Moskvada təhsil alanda dostlarımla bütün premyeralarda iştirak edir, bütün yeni filmlərə baxırdıq. Biz beynəlmiləl yataqxanada qalırdıq. Bu da yeni filmlərdən daha tez xəbər tutmağımıza kömək edirdi. Açığı, o zaman düşünürdüm ki, yeni tamaşa varsa, onun premyerasında iştirak etmədən tam yaşamaq mümkün deyil. Əlbəttə, Bakıya gələndən sonra - 80-90-cı illərdə bu vərdiş bir qədər korşaldı. Bizdə premyeralar da Moskvadakı qədər çox deyildi.

**- Bəlkə də, Mətbuat Şurasının rəhbərinə belə bir sual ünvanlanmaq bir qədər qeyri-peşəkarcasına görünəcək. Amma yenə də bilmək istərdim, gündə orta hesabla neçə qəzet və saytizləyirsiniz?**

- Kompüterim və telefonum daim açıq olur. Azərbaycanda, demək olar ki, gündəlik qırxadək qəzet çıxır. İşə gələn kimi o qəzetlər stolumun üstündə olur. Amma hətta onları vərəqləməmişdən əvvəl də bilirəm ki, orada təxminən hansı yazılar var. Çünki gün ərzində, hətta gecə yatmazdan əvvəl də həmin qəzetlərin saytlarına nəzər salıram, xəbər portallarını mütəmadi izləyirəm, sosial şəbəkələrə baxıram.

Artıq mətbuatda mizan-tərəzi dəyişir. Yerdəyişmə müşahidə olunur - klassik jurnalistika artıq yerini onlayn jurnalistkaya verir. Bütün dünyada belədir. Əvvəlcə sosial şəbəkələrdə qaldırılan problem gündəmə çevrilir, bir müddət sonra, hətta bəzən elə həmin axşam aparıcı KİV-in əsas xəbərlərinə çevrilir.

Bir müddət əvvəl "KİV" deyəndə qəzetləri nəzərdə tuturdular, XX əsrin 20-ci illərində radio yarandı və dedilər ki, qəzetlər gündəmdən çıxacaq, belə olmadı. 50-ci illərdə televiziya meydana çıxdı, onda yenə söylədilər ki, qəzetlərin sonu çatıb, amma bu da olmadı, bu gün də internet jurnalistikası yaranıb. Amma o da klassik jurnalistika ilə nə qədər mübarizə aparsa da, onu sıradan çıxara, əhəmiyyətini azalda bilmir. Çünki onların missiyaları fərqlidir. Məsələn, klassik jurnalistika - televiziyalar, qəzetlər, radio və agentliklər müvafiq qanunvericilik çərçivəsində fəaliyyət göstərir, amma onlayn jurnalistika dünyanın heç bir yerində çərçivələrə sığmır. Yalnız ümumi prinsiplər gözlənilir - terrorizmin, narkotiklərin, zorakılığın, insan alveri və pornoqrafik materialların təbliği yolverilməzdir. Bundan kənarda internet jurnalistikası və sosial şəbəkələr tam azaddır. Onlar da bundan istifadə edərək, klassik jurnalistikaya bəzən çox böyük zərbələr vurur. Bu gün demək olar ki, ictimai fikir əsasən onlayn jurnalistikada formalaşır, sonra klassik jurnalistikaya keçir. Mövcud durumda bərabər mübarizə şansları əldə etmək üçün qəzetlər də öz xəbər portallarını və ya elektron versiyalarını yaratdılar. Amma müşahidələr onu da göstərir ki, tədricən ənənəvi jurnalistika öz yerini onlayn jurnalistikaya verəcək. Proseslər ona gedir.

**- Sosial şəbəkələrdən istifadə nə qədər vaxtınızı alır?**

- İmkan olduqca baxıram. Məni orada gündəm daha çox maraqlandırır.

***Söhbətləşdi:* Rəbiqə**

## Akademiyanın alimi:
## *"Nəsimi haqqında iddialar yanlışdır"*

"Nəsiminin Azərbaycanda anadan olmadığını əvvəllər də deyiblər. Müəyyən müddət Azərbaycandan kənarda yaşayan bir alimimiz deyirdi ki, o, İraqda kiçik bir qəsəbədə anadan olub".

Bunu Modern.az saytına açıqlamasında AMEA-nın Şərqşünaslıq İnstitutunun əməkdaşı, filologiya elmləri doktoru Sənan İbrahimov deyib. Azərbaycanın orta əsr hürufi şairi Nəsiminin yad ölkədə doğulduğu haqda iddialarla razılaşmayan alim onun doğum yerinin başqa ərazi yox, məhz Şamaxı olduğunu göstərir:



"Hətta belə də deyirdilər ki, guya "Nəsimi" onun təxəllüsü yox, doğulduğu yerin adı ilə bağlıdır. Amma biz bununla qəti razılaşmırıq. Bu sahənin alimlərinin Nəsimşünaslıqla bağlı araşdırmaları çoxdur. Elə təkcə Şamaxıdakı "Şah Xəndan" qəbiristanlığını göstərmək kifayətdir. Şah Xəndan Nəsiminin böyük qardaşı olub. Ona Şamaxıda Cəmu-Dəmun deyirdilər. O da şeir yazıb, amma az yaşayıb. Əgər bu gün Şah Xəndan qəbiristanlığı Şamaxıdadırsa, Nəsimini də ordan saymaq olar. Hələ bu faktlardan yalnız biridir".

**Elmin NURİ**

Abbas Abdulla
75



## Çəmənlərin nəğməsi

Baharda göyəririk...
Dünyaya sıravi əsgər kimi gəlirik –
ayaq üstə - əmrə müntəzir.
Üstümüzdən mart küləyi əsir,
qoşun-qoşun səpilirik düzlərə,
sığınırıq anamız Yerə.
Göylər pay alır göylüyümüzü,
Bəlkə də yaşayardıq bütün ömrümüzü,
göylərə boy atardıq,
sürülər, naxırlar olmasaydı,
Birinci paxıllar olmasaydı...

1969

## Göy göl

Gözündən nur alıb dan ulduzunun
Qoca Kəpəzimin yaşıdı Göy göl.
Bir ceyran baxışlı Gəncə qızının
Qızıl üzüyünün qaşıdı Göy göl.

Ahından yanmadı zaman Əslinin,
Bürüdü yolunu duman Əslinin,
Kərəmin oduna yanan Əslinin
Bəlkə də gözünün yaşıdı Göy göl.

Ona bağışlanıb ətri güllərin,
Açıq süfrəsidir bizim ellərin,
Bütün dənizlərin, bütün göllərin
Qövsi-qüzeh taclı başıdı Göy göl.

1963

## Nazimin heykəli

Nazim Hikmətin əsərləri
Bolqarıstanda türk dilində
nəşr olunur.

Nazimin heykəli Sofiyada
dünyaya baxır gülə-gülə,
Qoltuğunda səkkizcildliyi;
(İkicəciyi çıxıb hələ).

Nazimin heykəli İstanbulda
qoltuğunda yazılmamış bir kitab,
dodağında donmuş bir cüt söz:
Türkiyə! İnqilab!

Nazimin heykəli Parisdə
yağmurluğu qolunun üstdə.

Nazimin heykəli Bakıda,
Kiyevdə, Tiflisdə, Üsküpdə.

Nazimin heykəli Qara dənizdə
Moskvada Nazimin heykəli!

hər yerdə, hər yerdə
Vətənə uzanıb Nazimin əli.

1966



Rəbib Məmmədov

## Yaralıyam

Son məktubam, açma məni,
Xəlbir edib saçma məni,
Belə qoyub qaçma məni,
Bilmirsənmi yaralıyam?

Bənövşətək boyun buran,
Qəlbi qırıq yolda duran,
Hey başıma sığal vuran,
Bilmirsənmi yaralıyam?

Cavan ölüb bələyənim,
Başıma daş ələyənim,
Mənim üçün mələyənim,
Bilmirsənmi yaralıyam?

Görmür gözüm, bəzənmərəm,
Addım atıb gəzəmmərəm,
Halım yoxdu əzəmmərəm,
Bilmirsənmi yaralıyam?

Dostum olub ələ baxan,
Çörək verib başa qaxan,
Ələrimə kələb toxan,
Bilmirsənmi yaralıyam?

Sürünmüşəm kölgə kimi,
Düşmən alan bölgə kimi,
Xalqı köçən ölkə kimi,
Bilmirsənmi yaralıyam?

Mənə qardaş deyən həbib,
Dərdə dərman gəzən təbib,
Soruşma ki, nədir Rəbib,
Bilmirsənmi yaralıyam?

## A dünya

Beş günlük qonağam fağır gəlmişəm,
Dərdi özümnən çox ağır gəlmişəm,
Sürünüb zülmətdə yağır gəlmişəm,
Dizlərim olubdur mayıf, a dünya.

Dəniz suyu qədər axıb telimnən,
Ağrılar yol salıb yazıq belimnən,
Yığdığımı küləklər alıb əlimnən,
Çəkdiyim zəhmətə hayıf, a dünya.

Kəsilib qulağım, duymadım azan,
Kor olmuş gözümdə xoş deyil məzəm,
İnsan arasında ruh olub gəzən,
Gözünnən olmuşam qayıf, a dünya.

Düşmüşəm zindana günahım yoxdu,
Varına, puluna tamahım yoxdu,
Sənə yazılası sözlərim çoxdu,
Rəbibdi eyləyən ayıf, a dünya.

## Xoşbəxtəm mən

Bu necə gülüşdü, necə baxışdı,
Gözlər səni gördü, ürək alışdı.
Sənin gözəlliyin mənə tanışdı,
Səni sevdiyimçün çox xoşbəxtəm mən.

Gözəllik, həm ağıl, ismət səndədi,
Böyüyə, kiçiyə hörmət səndədi,
Bəxtimə yazılan qismət səndədi,
Səni sevdiyimçün çox xoşbəxtəm mən.

Görüb qınamasın insanlar məni,
Ürək alovlanır görəndə səni,
Mənim həyatımsan, qəlbimin təni,
Səni sevdiyimçün çox xoşbəxtəm mən.

Görüb gözlərini olmuşam vurğun,
Qəlbimin sahibi ey yar, sən oldun.
Gör səni nə qədər çox sevir Eltun,
Səni sevdiyimçün çox xoşbəxtəm mən.

**Eltun Mehdioğlu**



Gülməmməd Cəlilov

## Füzuli qəzəlinə təxmis

*(beşləmə)*

Müttəsil kimdi məni bu eşqə təhrik edənim?
Gül kimi təşnədəyəm qovrulacaqdır çəmənim,
Qeydimi çəkənim yox, gen gəzir dərdi bilənim,
"Pənbeyi-daği-cünun içrə nihandır bədənim,
Diri olduqca libasım budur, ölsəm – kəfənim."

Taledən cəfa enir, eşqimə olmuram nail,
Eşq odu yandıracaq keçsə də illərlə fəsil,
Ürəyim hökm eyləyir: canı qoru, sevgini sil.
"Canı canan diləmiş, verməmək olmaz, ey dil!
Nə niza eyləyəlim, ol nə sənindir, nə mənim."

Eşqin zirvəsindəyəm, enəmmirəm fövqündən,
Cəfası nə güclüdür, çıxammıram sövqündən,
Vəslin aludəsiyəm, doyammıram zövqündən,
"Daş dələr ahım oxu, şəhdi-ləbin şövqindən,
Nola zənbur evinə bənzəsə beytülhəzənim."

Eşqin öz hökmünü gör, cövrü böyük qüdrətdir,
Eşqsiz insan olanın ömrü-günü zillətdir.
Eşqin bol möhnəti də aşiqlərə nemətdir,
"Tövqi-zənciri-cünun daireyi-dövlətdir,
Nə rəva kim, məni ondan çıxara zəfi-tənim."

Məhəbbət dəryasıdı çıxmağa yoxdur hünərim,
Mənə bir təbib deyin, təşrih edə dərdi-sərim,
Ciyərin qanı kimi sel tək axır qanlı tərim:
"Eşq sərgəştəsiyəm, şeyli-sirişk içrə yerim,
Bir hübabəm ki, həvadan doludur pirəhənim."

Ləblərin bal kimidi, əsil dildarım sənsən,
Eşqimə meylin olub, eşqi nurlu bir şəmsən,
Gülşəndə rayihəli, yaz ətirli bir gülsən,
"Bülbüli-qəmzədəyəm, bağü-baharım sənsən,
Dəhənü qəddü rüxün, qönçəvü sərvü səmənim."

Gülməmməd, gül fəslidi yaz, reyhandı azarın,
Aləmə eşqin böyük, şirin gəlsin baharın,
Eşq ilə biz də sevək təkrarını təcidarın:
"Edəmən tərk Füzuli, səri-kuyin yarın,
Vətənimdir, vətənimdir, vətənimdir, vətənim!.."



Şahvələd Tükənli

## Vəfalı olsun

Sevdiyimə ilk hədiyyə
Bahar gül-çiçəyi olsun,
Bir azda böyüsün hələ,
Gözəllər göyçəyi olsun.

Şıltaqlığına gülməyin,
Gözləyin tam yaşa dolsun,
Bilməsin heç kədər, qəm, kin,
Daima qəlbi şad olsun.

Tərifdədir qara qaşlı,
Nə edim buğdayı olsun,
Qaratel qaşlı sevdiyim,
Arzumdur vəfalı olsun.

## Getdi

Heç özüm də bilmədən yaş yetmişi haqladı,
İnsan ömrü də sanki, sinəyə gül taxmadı,
Yel kimi ötən zaman bircə sözə baxmadı,
Eh, illər gəncliyimi belə apardı getdi.

Yay, payız yolum düşdü gah dağa, gah arana,
Düşdüm çox burulğana, əl atmadım samana,
Hər an günbatan yerdə boylandım gün doğana,
Deməsinlər eloğlu yurdunu atdı getdi...

Ömrün qırx altı ili əktəb carçısı oldum,
Məzunlarla hər dəfə birgə kövrəlib doldum,
"Son zəng"də gül misallı həm açıldım, həm soldum,
Hər il xoş arzularım onlarla birgə getdi.

Şahvələd Tükənliyəm, sevdim incəsənəti,
Verdiyim məsləhətlər gənclərə bir hörmətdi,
Əgər qazana bilsə oxucu məhəbbəti,
O vaxt bir kimsə deməz zəhmətim boşa getdi.



Əzizli Qurban

## On bir ay sultanı gəlib Ramazan

Ruzumuz süfrədə, həm bucaqdadır,
On bir ay sultanı gəlib Ramazan.
Qəlbimiz niyyətli, əllər haqdadır,
Bizdən çevrilməsin nəzərin, rizan,
On bir ay sultanı gəlib Ramazan.

Sayəndə paklaşıb biz olmuşuq pak,
Çatırıq niyyətə mömin insantək,
İlahi, dünyanı əminliyə çək,
Sənsən hər bir işi yaxşıya düzən,
On bir ay sultanı gəlib Ramazan.

Ramazan ayıdır, şad olsun aləm,
Qalmasın dünyada nə kədər, nə qəm,
Tanrının eşqilə sevinəm, güləm,
Qoy olsun Ramazan dillərdə gəzən,
On bir ay sultanı gəlib Ramazan.

Zalım ürəklərə məhəbbət ensin,
İlıq nəfəsinlə qəlbim isinsin,
Danışmayan dillər danışıb dinsin,
Söyləsin haqları qoy doğru, düzən,
On bir ay sultanı gəlib Ramazan.

Təmənna edirik Allahımızdan,
Nəzər et, rəhm qıl, keç günahımızdan,
Bir əsər qalmasın dərd-ahımızdan,
Səbr elə, naşükür olma, ey insan,
On bir ay sultanı gəlib Ramazan.

Müqəddəs gecədir Qədir gecəsi,
Tanrıya tez çatar bəndənin səsi,
Saf olsun bu qoy saf düşüncəsi,
Duru düşüncə ilə yaşayar cahan,
On bir ay sultanı gəlib Ramazan.

Yayın bəd əməldən, pisliyi unut,
Tanrıya yaxın ol, hər vaxt oruc tut,
Əl aç Yaradana, itirmə ümid,
Niyyətə yetişmək olacaq asan,
On bir ay sultanı gəlib Ramazan.

Qədir gecəsində enibdir Quran,
Ramazan ayını biz edək bayram,
Səcdə qıl, dua et, Əzizli Qurban,
Səcdənlə Tanrıdan mərhəmət qazan,
On bir ay sultanı gəlib Ramazan.

Azərbaycanlıların Mədəniyyət Mərkəzi
Region PRESS
İctimai qəzet
№09 (184) 30.06.2015
Qəzet 2008-ci il martın 15-dən çıxır

**Yalan qarın doydurmaz, mənə həqiqət lazımdır.**
**R.Taqor**

# Gürcüstan “Beynəlxalq İctimai Kolleci”

Marneuli Tədris-Məsləhət Mərkəzi üzrə -9-10-11-12-ci sinifləri bitirmiş şagirdlər üçün müsabiqə əsasında 2015-2016 tədris ili üçün aşağıdakı ixtisaslara tələbə qəbulu elan edir:

**9-cu siniflər üzrə**
1.İnformasiya qrafikası
2.Kompyuter qrafikası
3.İnternet texnoloqu
4.Neft və qaz texniki
5.Gömrük işi
6.Mühasibat
7.Ofis meneceri
8.Diş texniki
9.Tibb bacısı – assistent
10. Müxbir
11. Kriminalist




**12-ci sinif üzrə**
1.Əyiricilik peşəsi
2.Tikinti yolları mühəndisi
3.Kiçik biznes üzrə ixtisasçı
4.Bank operatoru
5.Tibb bacısı– təcrübəçi
6.Əczaçılıq - assistent
7.Kriminalist

Məzunlara dövlət akkreditasiyalı və avtorizasiyalı diplomlar verilir.

**Aşağıdakı sənədləri təqdim etmək lazımdır:**
*Attestat*
*Pasport*
*Şəkil - 6 ədəd 3x4 ölçülü*
*Disk - 1 ədəd*

**Dərslər Marneuli şəhərində keçirilir.**
**Ünvan:** ***Marneuli şəhəri, Rustaveli küç. 53, I mərtəbə.***
**Kollecin rəhbəri:** ***Hüseynov Xəlil***
***599 18 74 68***
***599 06 26 76***

# I Avropa Oyunları tarixə çevrildi

*(Əvvəli səh. 1-də)*

Mərasimdə ənənəvi və müasir Azərbaycan mədəniyyətinin birliyi tamaşaçıların diqqətinə çatdırılıb. Tədbirin “transformasiya” hissəsində səhnədə üç nəhəng heykəl görsənib. Sonra Qız qalasının divarları aralanıb və onun içərisində Alov qüllələri peyda olub.



Müxtəlif maraqlı göstərilərdən sonra idmançılar kütləvi şəkildə stadiona daxil olaraq tribunalarda onlar üçün xüsusi ayrılmış yerlərə keçiblər.

Xatırladaq ki, 17 gün davam edən yarışlarda 6 mindən çox idmançı 253 medal dəsti uğrunda mübarizə aparıb. Medal cədvəlində ilk üç sırada Rusiya, Azərbaycan və Böyük Britaniya yer alıb. Gürcüstan isə 2 qızıl, 6 gümüş və 8 bürünc medalla 21-ci sırada olub.

# Oruc tutanları tox saxlayan qidalar

Diyetoloq Şəfiqə Aydın Səlcuq Ramazanda tox qalmağın sirlərini verib. Publika.az-ın sağlamlıq bölməsi Türkiyə mətbuatına istinadən diyetoloqun məsləhətlərini təqdim edir:

Ramazan ayının isti yay günlərinə təsadüf etməsi oruc tutmağı bir az da olsa, çətinləşdirir. Bu gözəl ayı rahat başa vurmaq üçün imsakda tox saxlayan qidalara üstünlük verin.

**Tahin (küncüt pastası) və doşab**

Vitamin mineral və enerji anbarı olan tahinlə doşabı qarışdırıb yedikdə özünüzü gün ərzində yorğun və əzgin hiss etmirsiniz. Mürəbbəylə qarışdırdıqda mədəni ağırlaşdırmayacaq, həzmi yaxşılaşdıracaq. Gün ərzində 2-3 çay qaşığından artıq yemək olmaz.

**Yulaf əzməsi**

Yulaf əzməsini imsakda qatıq, kefir və ya süd ilə qarışdırılaraq yeyildikdə daha doydurucu olur, həm də mədəni tox saxlayır.



**Meyvə və kompot**

Meyvə və kompot bədənə enerji verir, bağırsaqların gün ərzində yaxşı işləməsini təmin edir.

**Qoz**

Qoz minerallarla zəngindir, həm də toxluq hissi verdiyi üçün oruc tutmağı asanlaşdırır. İmsakda mütləq 1-2 qoz yeyin.

**Yumurta**

Yumurta da imsakda mütləq yeyilməli olan qidaların siyahısına daxildir. Qaynadılmış yeyilməlidir. Ancaq yulaf kəpəyi, göbələk və bibər kimi tərəvəzləri ilə qayğanaq halına gətirilərək az yağda yeyilə də bilər.

**Az duzlu və ya duzsuz pendir**

Pendir gün ərzində lazım olan enerji ehtiyacını qarşılayır. Zülal anbarı olan qidadır. Lakin imsakda duzsuz, yaxud az duzlu pendir yeyilməlidir. Çünki duzlu pendir susuzluq yaradır.




*Göz həkiminin yanında:*
*— Pasient, zəhmət olmasa deyin, bu yazını oxuya bilirsiniz ?*
*— Oxuya bilmirəm*
*— Aydındır, sizdə uzağı pis görmə vardır.*
*— Həəəəəəə, savadsızlıq azmış kimi hələ bir uzağı pis görmə də tapıldı.*

***

*Təcili yardıma zəng:*
*— Təcili yardım eşidir.*
*— Mənim oğlum qələmi udub !*
*— Narahat olmayın, biz indi gəlirik*
*— Bəs mən nə edim ?*
*— Hələlik karandaşla yazın.*

***

*Aleksandr Düma xəstə olduğu zaman yanına gəlmiş həkim deyir:*
*— Vəziyyətiniz ciddidir, siz hər bir təsadüfə hazır olmalısınız. Sizin bu çətin günlərinizdə görüşmək istədiyiniz biri varmı?*
*Düma bu sual qarşısında bir qədər fikirləşib deyir:*
*— Əlbəttə!*
*— Kiminlə görüşmək xəyalınız var?*
*— Başqa həkimlə! — deyə cavab verir…*

# Bu da sürücüsüz işləyən maşınlar

***Uzun müddətdir sürücüsüz maşın hazırlamağa çalışan “Google” nəhayət bu istəyinə nail olub.***

Kaliforniyada girişi sərbəst olan bir məkanda maşınların təqdimatı keçirilib.

Firmanın açıqlamasına görə, maşınlar hər hansı sürücü müdaxiləsi olmadan düzgün yolu tapa biləcək. Ancaq hələlik təhlükəsizlik məqsədilə maşınların içərisində sürücülər olacaq.“Google” firmasında çalışan bu sürücülər maşında hər hansı problem meydana çıxarsa dərhal müdaxilə edəcək.



Sürücüsüz maşınlara gələcəkdə tələbat daha çox olacaq. Hazırda istifadə olunan maşınlardan daha çox etibarlı olacağı deyilən həmin maşınlar bir çox texnologiya şirkətləri və maşın firmalarının diqqətindədir.

# Başsağlığı

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi Tbilisidəki Ukrayna-Avropa Universitetinin müəllimi ***Ziyadxan Sərdarova*** anası **Həbbəzə Məhəmməd qızının** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi Marneuli rayonundakı Kəpənəkçi ümumi məktəbinin kimya müəllimi ***Suddarxan Kazımova*** anası **Naz Yəhya qızının** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

*Təsisçi:* *Azərbaycanlıların Mədəniyyət Mərkəzi (AMM)*
*AMM-in sədri:* **Fazil HƏSƏNOV**

*Redaktor:* **Binnət ƏLİOĞLU**
*Məsul katib:* **İbrahimxəlil**
*Texniki redaktor:* **Əkrəm QƏHRƏMANOV**
*Kompyuter tərtibatçısı:* **Bahar MƏMMƏDOVA**

*Redaksiyanın ünvanı:*
Marneuli şəhəri, Çolokaşvili küç. 3
İndeks: 3000 Tel.: (+995 357) 22 29 29
Faks: (+995 357) 22 57 88
E-mail: regionpress@yahoo.com
Qəzetimizi Facebook səhifəmizdə də oxuya bilərsiniz:
https://www.facebook.com/regionpress.AMM

**Qeydiyyat şəhadətnaməsi:**
**09.09.2004. №43/5 z—9**

Fakta və ifadə olunan fikrə görə məsuliyyəti müəlliflər daşıyır.
Qəzet pulsuz yayımlanır.
**TİRAJ: 2000**